Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

21
APREL
2020-ci il

№ 61 (4192)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

■ səh. 10 ■

# QONDARMA «DQR»İN «PREZİDENTİ» PAŞİNYANIN QƏBULUNDA - BEYNƏLXALQ VASİTƏÇİLƏR BUNA DA SUSUR...

Prezidentin "Azərbaycanda həmrəylik görünməmiş dərəcədə güclənib" fikrinə cavab - bir yandan dövlətin, bir yandan imkanlı şəxslərin yardımı...
■ səh. 4 ■

Azərbaycanda daha bir "koronavirus ilki" - sağalanlar yoluxanları sayca 5 dəfə üstələdi
■ səh. 5 ■

İrəvan Qarabağ məsələsində Bakının qəti addımlar tələbi qarşısında... Azərbaycan XİN dünyadan sözdən işə keçilməsini istədi
■ səh. 9 ■

ABŞ Konqresinin qondarma "DQR" aşiqi olan bəzi satılmış konqresmenləri hələ də susmur...
■ səh. 6 ■

Rusiyada koronavirusdan sonra normal həyata qayıdışın vaxtı barədə proqnozlar - Azərbaycan qonşuları qabaqlaya bilərmi...
■ səh. 5 ■

ABŞ - Çin qarşılıqlı "koronavirusu sən gətirdin" müharibəsi dünyanı hara aparır...
■ səh. 12 ■

Paşinyan-kilsə qarşıdurması təhlükəli mərhələdə... Erməni baş nazir kilsə yeparxiyasına ləkələyici ittihamlar əmri verdi
■ səh. 11 ■

Dollar təhdidi Azərbaycan üçün tam aradan qalxır - valyuta ehtiyatlarının artımı ilə...
■ səh. 14 ■




■ səh. 2-3 ■

**Prezident Azərbaycanın elektrik enerjisi tarixində indiyədək bilinməyən bir çox xəyanət və nadürüstlüklərin tarixçəsini açdı - dələduz şirkət qovuldu, ölkədən milyonlarla pul qaçırıldı, elektrik təsərrüfatını dağıtmaq planlarına son qoyuldu...**





**Prezidentə intensiv vətəndaş məktublarının ictimailəşdirilməsinin siyasi, ideoloji və strateji hədəfləri...**
■ səh. 4 ■

**Rusiyada qalmış vətəndaşlarını Bakıya daşımaqda Azərbaycanın modeli və Ermənistanın davranışları - müqayisə edin...**
■ səh. 7 ■

**Qarabağ sülh prosesi indi hansısa formada gedirmi - Mariya Zaxarovanın əsaslandığı «nüanslar»...**
■ səh. 6 ■

■ səh. 8 ■
Azərbaycanın "koronavirus zəncirini iki dəfə qırması və üç şərəf nümunəsi" - Prezidentlə xalqın arası ikiqat bərkidi...



■ səh. 13 ■
Banklar Prezidentin on minlərlə insan üçün faydalı tapşırığını necə icra edəcək...



■ səh. 15 ■
Azərbaycanda işsizliyə görə ödəniş verilənlərin sayı 230 minə çatdırıldı



■ səh. 10 ■
"Amnesty İnternational" Paşinyanın "demokratik ölkə" oyunu əleyhinə gediş etdi - məhkəmə basqı altında...



■ səh. 15 ■
Koronavirusla mübarizədə Azərbaycan bələdiyyələrinin rolu görünmədi...



# Prezident Azərbaycanın elektrik enerjisi tarixində indiyədək bilinməyən bir çox xəyanət və nadürüstlüklərin tarixçəsini açdı - dələduz şirkət qovuldu, ölkədən milyonlarla pul qaçırıldı, elektrik təsərrüfatını dağıtmaq planlarına son qoyuldu...

## *Xarici investorlara şəffaf investisiya şərti bəyan edildi...*

**Aprelin 20-də Bakıda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksi açılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.**

Prezident İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşı ilə də görüşüb. Dövlət başçısı görüşdə çıxış edib:

- "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş idarəetmə mərkəzinin istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Şadam ki, bu gözəl binada "Azərenerji"nin bir çox qurumları yerləşir. Dispetçer mərkəzi, Baş idarəetmə mərkəzi, energetika institutu, tədris mərkəzi, laboratoriya, energetiklərin mədəniyyət mərkəzi. Hesab edirəm ki, indi burada şərait çox yaxşıdır. Bu binada qısa müddət ərzində əsaslı yenidənqurma işləri aparılmışdır. Demək olar ki, bina yenidən qurulmuşdur və indi bir yerdə, bir mərkəzdə "Azərenerji"nin əsas departamentləri yerləşir və beləliklə, idarəetmə üçün daha da gözəl imkan yaranır. Çünki bundan əvvəl "Azərenerji"nin departamentləri, qurumları müxtəlif yerlərdə yerləşirdi, bəzi hallarda yarımstansiyaların binalarında yerləşirdi və əlbəttə ki, idarəetmə üçün bu, o qədər də məqbul hal deyildi.

Bu bina Sovet dövründə tikilib və bir müddət bundan əvvəl özəlləşdirməyə çıxarılmışdı, "Azərenerji"nin balansından çıxarılmışdı. Mən bundan xəbər tutandan sonra göstəriş verdim ki, bu, dərhal "Azərenerji"nin balansına qaytarılsın. Çünki, əks-təqdirdə, bu binanı özəlləşdirən hansısa sahibkarların burada nə yaradacaqları bəlli deyildi. Bina çox böyükdür, ərazisi də böyükdür, təqribən 4 hektara yaxındır. Əvvəlki binanın sahəsi 13 min kvadratmetr idi, indi isə artırılıb 20 min kvadratmetrə çatdırılıb. Yəni burada ya hansısa bir mehmanxana, yaxud şadlıq evi, yaşayış binası, ya da ki, hansısa bir ictimai iaşə obyekti yaradılacaqdı və energetiklər bu binadan məhrum olacaqdılar.

Bu bina energetiklərə qaytarılandan sonra artıq 2018-ci ilin sonunda burada əsaslı yenidənqurma-təmir işləri başlamış və uğurla başa çatdırılmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə də aid idi. Hələ 2004-cü ildə Regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəlmişdi. Bu, təbii idi. Çünki o vaxt biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Biz xaricdən elektrik enerjisi alırdıq. Həm valyuta xaricə gedirdi, həm də bizim mövcud infrastruktur xətlərimiz imkan vermirdi ki, ölkəmizi elektrik enerjisi ilə təmin edək. Hətta Bakı şəhərində gecə saatlarında elektrik enerjisi kəsilirdi. Yadımdadır, - gənc nəslin nümayəndələri bəlkə də bunu xatırlamır, - o vaxt hətta televiziya verilişləri axşam saat 12-də dayandırılırdı ki, insanlar televiziyaya baxmasınlar, enerjidən çox istifadə etməsinlər. Yəni böyük qıtlıq var idi. O ki qaldı, Azərbaycanın bölgələrinə, orada, ümumiyyətlə, enerji təminatı çox pis vəziyyətdə idi. Ən yaxşı halda, sutka ərzində 2-4 saat elektrik enerjisi verilirdi və əlbəttə ki, bu həm insanların həyat tərzinə mənfi təsir göstərirdi, eyni zamanda, bizim iqtisadi, sənaye potensialımızın artımına da böyük problem yaradırdı. Ona görə mənim göstərişimlə birinci regional inkişaf proqramında bu məsələyə çox böyük diqqət göstərildi və biz dərhal işlərə başladıq. O vaxt regional elektrik stansiyalarının tikintisinə başlamışdıq. Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda elektrik stansiyalarının tikintisi müəyyən dərəcədə imkan yaratdı ki, öz tələbatımızı özümüz təmin edək. Ancaq bununla paralel olaraq yeni elektrik stansiyalarının, böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu və son 16 il ərzində, bütövlükdə, ölkəmizdə 30-dan çox yeni stansiya tikilmişdir. Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində. Bu stansiyalar arasında böyük stansiyalar xüsusilə əhəmiyyət daşıyır. Ən böyük stansiya Şirvan şəhərində tikilmişdir - "Cənub" Elektrik Stansiyası. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra Sumqayıt Elektrik Stansiyası, 525 meqavat. "Şimal 2" bu yaxınlarda istifadəyə verilib. Onun generasiya gücü 400 meqavata yaxındır. "Səngəçal" stansiyasının generasiya gücü 300 meqavatdır. Təkcə bu dörd stansiyanın generasiya gücü 2 min meqavatdan çoxdur. Bundan əlavə, ölkəmizin müxtəlif yerlərində su elektrik stansiyaları tikildi. Bildirməliyəm ki, Naxçıvan Muxtar Respublikasında tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan Naxçıvan Muxtar Respublikası indi özünü tam təmin edir və eyni zamanda, orada ixrac potensialı da yaranmışdır. O cümlədən, bütövlükdə, ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Əlbəttə ki, bu böyük infrastruktur layihələri böyük vəsait tələb edir. Bu vəsaitin böyük bir hissəsi büdcənin hesabına təmin edildi, digər hissə götürülmüş kreditlər hesabına və bu kreditlər qaytarılır. Beləliklə, biz çox müasir enerji sistemimizi yaratdıq və bu gün dayanıqlı enerji təchizatı ölkə üzrə çoxdan təmin edilib. Bundan əlavə, xüsusilə son illərdə görülmüş işlər enerji təsərrüfatını tamamilə yeniləşdirib. Yüksəkgərginlikli xətlər, bizi qonşu dövlətlərlə birləşdirən xətlər inşa edildi, bir çox yerlərdə yeni yarımstansiyalar tikildi, transformatorlar quraşdırıldı. Bölgələrə çoxsaylı səfərlərim çərçivəsində mən həmişə maraqlanıram və vətəndaşlardan soruşuram ki, enerji təminatı necədir? Son illər ərzində hər zaman müsbət rəylər eşidirəm. Bu, məni çox sevindirir. Bu, onu göstərir ki, "Azərenerji" və "Azərişıq" bu istiqamətdə çox böyük işlər görürlər.




Bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır. Eyni zamanda, "Azərenerji" son iki il ərzində mövcud stansiyaların generasiya güclərinin bərpası barədə yeni layihə təqdim edib. Çünki bu stansiyaların əksəriyyəti çoxdan tikilib. Bu stansiyalarda mövcud vəziyyət bizi heç cür qane edə bilməzdi. Hamımızın yadındadır ki, Mingəçevir Elektrik Stansiyasında baş vermiş qəza hansı fəsadlara gətirib çıxardı. Ölkəmizi qaranlıq bürüdü. Metronun bütün stansiyalarında böhran yarandı və ölkəmiz qaranlığa qərq olmuşdu. Bu, ilk növbədə, səhlənkarlıq, məsuliyyətsizlik ucbatından baş vermiş qəza idi.

*(Ardı 3-cü səh.)*

*(Əvvəli 2-ci səh.)*

Ona görə "Azərenerji"nin rəhbərliyi dəyişdirildi, cəzalandırıldı. Yeni rəhbərlik gətirildi. Yeni rəhbərlik qarşısında çox konkret vəzifələr qoyuldu və bu vəzifələr bu gün icra edilir. Çünki enerji təminatı hər bir ölkənin döyünən ürəyidir. Bu olmasa, heç nə olmayacaq. Bu olmasa, sənaye, kənd təsərrüfatı inkişaf etməyəcək, suvarma işləri təmin edilə bilməyəcək, ictimai nəqliyyat işləməyəcək. Ümumiyyətlə, həyat iflic vəziyyətə düşəcək. Ona görə bizim əsas məqsədimiz müstəqil enerji sistemi yaratmaq, xaricdən asılılığı aradan götürmək idi. Enerji potensialımızı elə həcmdə yaratmalı idik ki, bizim ehtiyatda da kifayət qədər generasiya güclərimiz olsun və bu gün bu var. İndi müxtəlif rəqəmlər səslənə bilər, amma ən aşağı rəqəmlər onu göstərir ki, bizim hazırda ehtiyatda ən azı 1000 meqavat generasiya gücümüz var. Mövcud stansiyaların güclərinin bərpası artıq başa çatır. Bunların arasında, ilk növbədə, Mingəçevirdəki İstilik Elektrik Stansiyasını qeyd etməliyəm. Çünki bu, bizim ən böyük generasiya gücümüzdür və həmin stansiyada baş vermiş qəza nəticəsində ölkəmiz qaranlığa düçar oldu. Bu stansiyada 8 blokun hamısı yenidən qurulur. Ümid edirəm ki, yaxın bir neçə ayda bu stansiya tamamilə yenidən qurularaq istifadəyə veriləcək. Bu stansiyada təkcə bərpa olunan güclərin həcmi 600 meqavata yaxındır. Təsəvvür edin, ancaq bərpa işlərini düzgün aparmaqla biz 600 meqavat gücündə əlavə generasiyaya sahib olacağıq. Əgər bunu biz ayrıca bir stansiya kimi götürsək görərik ki, bu, ölkəmizin generasiya gücünə görə ikinci böyük stansiya olacaq, "Cənub" stansiyasından sonra.

Digər elektrik stansiyalarında da bərpa işləri aparılır və əminəm ki, biz bu istiqamətdə öz hədəfimizə çatacağıq. Bütün bu işlər, o cümlədən, ölkəmizdə mövcud olan sabitlik, əminamanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarır ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər. Biz bunu həmişə arzulamışıq. Ancaq görəndə ki, xarici investor bu sahəyə maraq göstərmir, bütün işləri biz özümüz görürük, öz pulumuzla. Müəyyən hissəni biz borc kimi götürdük, amma əsas hissəni öz pulumuzla həll etdik və bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır və bunu təsdiqləyən Davos Ümumdünya İqtisadi Forumunun hesabatıdır. Bunu mən elə-belə demirəm. Beləliklə, Forumun hesabatında elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycan dünyada ikinci yerdədir. Təsəvvür edin, ikinci yerdə. Bizdən qabaq, sadəcə olaraq, bir ölkə var. Yəni bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Özü də nə vaxt, qısa müddət ərzində.

Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir "Barmek" şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparıb. Sonra da bu, azmış kimi, bizi hələ məhkəməyə vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim sərəncamımla o vaxt "Azərişıq" Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoymuşam, "Azərişıq". Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və "Azərenerji"nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina. Təsəvvür edin, 13 min kvadratmetrlik binanı çıxardılar özəlləşdirməyə və ucuz qiymətə satmaq istəyirdilər. Əgər mən xəbər tutmasaydım, mənə məlumat verilməsəydi, göstəriş verməsəydim, satacaqdılar. İndi görün siz nə gözəl binada yerləşirsiniz. Bu, demək olar ki, bizim enerji sistemimizin tənzimlənməsi işində əsas mərkəzdir. Skada sistemi, dispetçer sistemi, idarəetmə sistemi, hamısı buradadır, harada yerləşəcəkdi? Bizim enerji sistemimizi belə dağıtmaq istəyirdilər.

Ona görə bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında, - baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi, - qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat - bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır. Təbii ki, burada institut yerləşir, Baş idarəetmə mərkəzi, Tədris-laboratoriya mərkəzi, Dispetçer mərkəzi və eyni zamanda, bu, bizim enerji sistemimizin yeni simasını əks etdirir. Bu bina artıq satışdan, hərracdan çıxarılaraq energetiklərə, onun sahiblərinə qaytarılmışdır. Ona görə bu binada işləyən vətəndaşlar öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər. Elə etməlidirlər ki, bizim enerji təminatımız daim yüksək səviyyədə olsun.

Bütün bunlarla yanaşı, hələ görüləcək işlər çoxdur. "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda, sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəlmişlər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə - biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma, prinsip etibarilə, ilkin razılaşmalar əldə edilib. Bu, öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpa olunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər.

Bir də xarici şirkətlərin fəaliyyəti ilə bağlı bildirməliyəm ki, müəyyən müddət ərzində biz bu sahəni dövlət inhisarında saxlamışdıq və mən bunun səbəbini də bildirdim. Ancaq hazırda Azərbaycana investisiya qoymaq istəyən istənilən şirkət öz təkliflərini versin və yeni stansiyalar tiksin, investisiya qoysun və bizimlə bərabər işləsin.

Bilirəm ki, bəzi şirkətlərin mövcud stansiyalara marağı vardır. Ancaq buna baxmaq lazımdır, bu, bizə lazımdır, yoxsa yox? Çünki mövcud stansiyalar hamısı işlək vəziyyətdədir, dövlət hesabına böyük investisiyalar qoyulub. Əgər hansısa xarici şirkət bizdən o stansiyaları daha yaxşı işlədə bilərsə, buyursun təklif versin, göstərsin ki, nədir bunun üstünlüyü, əgər bu, özəl əllərdə olarsa, baxarıq, əgər onlar doğrudan da daha səmərəli işləyəcəklərsə, işləsinlər. Ancaq xarici investorları mən, ilk növbədə, yeni stansiyalara yönəltmək istəyirəm. Gəlsinlər pul qoysunlar. Yoxsa, hazır vəziyyətdə gəlməyi hər kəs istəyər. Gəl pul qoy, istehsal et, ötür ümumi sistemə və öz biznesini genişləndir. Bax, mənim xarici şirkətlərə tövsiyəm bundan ibarətdir, o cümlədən, yerli şirkətlərə. Əminəm ki, bundan sonra dövlət-özəl sektor tərəfdaşlığı bu sahədə də mümkün olacaqdır.

**COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycan dövlətinin ortaya qoyduğu fərqli və yeni mübarizə üsulları həm ölkə xaricində, həm də ölkə daxilində müsbət qarşılanır.**

# Aqrar Universitetin rektoru İbrahim Cəfərov Prezidentə məktubunda koronavirus əleyhinə dövlət tədbirlərinə yeni baxışlar göstərdi



Prezident İlham Əliyevin göstərişinə, tapşırığına əsasən ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində vurusun Azərbaycanda geniş yayılmasının qarşısı alındı.

Yeni növ koronavirus pandemiyası ilə bağlı Azərbaycan Prezidentinin verdiyi qərar və sərəncamlar, virusun geniş yayılmasının qarşısının alınması üçün atılan addımlar ölkəmizin ali təhsil ictimaiyyəti tərəfindən də təqdir edilir.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Həsən oğlu Cəfərovun universitetin kollektivi adından Prezident İlham Əliyevə ünvanladığı müraciətdə bildirilir:"Dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə Sizin rəhbərliyiniz və şəxsi nəzarətinizlə həyata keçirilən ən səmərəli tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrini, vətəndaşlarımızın, xüsusilə aztəminatlı ailələrin, tələbələrin sosial müdafiəsini əhatə etməklə, bütövlükdə iqtisadiyyatımızın dayanıqlılığının təmin edilməsinə, pandemiyanın təsirlərinin ən minimum səviyyəyə endirilməsinə yönəlib".

İ.Cəfərov həmçinin qeyd edib ki, koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 19 mart tarixli Sərəncamınızdan irəli gələn vəzifələrin həlli məqsədilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı verilmiş qərar Azərbaycan Dövlət Aqrar Universitetinin professor-müəllim və tələbə heyəti tərəfindən çox yüksək qiymətləndirilir.

Rektor məktbununda, həmçinin, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin və xalqımızın tezliklə pandemiya sınağından uğurla çıxacağına inandığını vurğulayır.

***Baki-xeber.com***

# Prezidentə intensiv vətəndaş məktublarının ictimailəşdirilməsinin siyasi, ideoloji və strateji hədəfləri...

***Vüqar Rəhimzadə:** "Bu, Prezidentə olan inamı daha da artırır və cəmiyyətdə birliyin, həmrəyliyin möhkəmlənməsinə töhfə verir"*

**Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə tədbirlər davam etdirilir. Prezidentin ölkədə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir.**



Bununla bağlı atdığı qətiyyətli addımlara, xalqımızın sağlamlığının qorunması və eyni zamanda, rifahının yaxşılaşdırılması üçün verdiyi mühüm qərarlara görə ölkənin bütün guşələrindən dövlət başçısına çoxsaylı minnətdarlıq məktubu gəlməkdə davam edir. Sadə insanlar dövlət başçısına çoxsaylı məktub yazırlar. Sözügedən məktublarda insanlar ürəklərindən gələni ifadə edirlər. Bunlar vətəndaş səmimiyyəti və sevgisindən doğan məktublardır.

Görünən odur ki, bütün dünyanı cənginə almış koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, gördüyü işlər vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanır. Onu da qeyd edək ki, Prezidentə gələn dəstək məktubları prezident.az saytına yerləşdirilir. Ümumilikdə, bu məzmunlu məktubların ictimailəşdirilməsinin nə kimi müsbət əhəmiyyəti var?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, sözügedn məktubların ictimailəşdirilməsi cəmiyyəti ruhlandırır: "Prezidentə olan inamı daha da artırır. Cəmiyyətdə birliyin, həmrəyliyin möhkəmlənməsinə töhfə verir. Ölkə başçısı ətrafında xalqın daha sıx birləşməsinə öz müsbət təsirini göstərir. Bu, çətin dönəmdə insanlarda müsbət ovqat yaradır və koronavirus bəlasından qurtulacağımıza inamı artırır. Prezidentə ard-arda gələn vətəndaş məktubları həm də bu istiqamətdə görülən işlərin yüksək səviyyədə təşkil olunmasının göstəricisidir. Eyni zamanda, ölkə Prezidentinin həyata keçirdiyi siyasətə verilən dəstəyin nümunəsidir. Məsələ ondadır ki, Prezident İlham Əliyev hər zaman xalqın yanında olub. İnsanların maddi rifahının yaxşılaşdırılmasına, həyat şəraitinin qorunmasına daim diqqət göstərir. Gələn məktublar xalqın ölkə başçısına olan rəğbətini ortaya qoyur və bütün ictimaiyyət onu dəstəkləyir.

*"Sözügedən təşəkkür məktubları hər bir insanın arzu və istəyini özündə ehtiva edir"*

**Nəzərə almaq lazımdır ki, Prezident vaxtında məlum qərarları verməsəydi, o zaman koronavirus ölkədə daha böyük fəsadlar törədərdi. Ona görə də ölkə başçısının qabaqlayıcı tədbirlər görməsi bunun qarşısını aldı. İctimaiyyət bütün bunların fərqində olduğu üçün, səmimi olaraq Prezidentə təşəkkür məktubları göndərir. Bu baxımdan hesab edirəm ki, sözügedən təşəkkür məktubları hər bir insanın arzu və istəyini özündə ehtiva edir".**

***Vidadi ORDAHALLI***

# Prezidentin "Azərbaycanda həmrəylik görünməmiş dərəcədə güclənib" fikrinə cavab - bir yandan dövlətin, bir yandan imkanlı şəxslərin yardımı...

***Rüfət Quliyev:** "Kimliyindən asılı olmayaraq, ehtiyacı olan ailələrə hər kəs dəstək göstərməlidir"*

**Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə dövlət tərəfindən aztəminatl ailələrə dəstək göstərilir. Karantin dönəmində həyata keçirilən tədbirlər dəstək məqsədi daşıyır.**



Dövlət qurumları, təşkilatlar, fondlar, fərdi şəxslər ehtiyacı olan ailələrə yardım edirlər. Onu da qeyd edək ki, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən son müşavirədə o, pandemiya ilə bağlı ölkəmizdə həmrəylik nümayiş olunduğunu bildirmişdi.

Onu da bildirək ki, keçirilən yardım aksiyalarının miqyasına görə Heydər Əliyev Fondu seçilir. Bununla yanaşı, vətəndaş cəmiyyətləri, dövlət qurumları, mədəniyyət xadimləri ehtiyacı olan şəxslərə yardım göstərirlər. Keçirilən yardım aksiyalarının məqsədi karantin rejimi dövründə aztəminatlı ailələrə sosial yardım göstərmək istəyən şəxsləri bir araya gətirmək və bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir.

Millət vəkili Rüfət Quliyev bildirdi ki, o, aztəminatlı, tənha yaşayan ailələrə yardım göstərir: "Bununla yanaşı, müharibə veteranları, şəhid ailələri və digər seçicilərlə onlayn görüş həyata keçirirəm. Seçicilərin fərdi və maddi problemləri dinlənir, yerindəcə həll edilməsi üçün lazımi işlər görülür".

*"Pandemiya dönəmində əhalinin bir-birinə dəstək olması, həmrəylik nümayiş etdirməsi müsbət addımdır"*

Millət vəkilinin sözlərinə görə, kimliyindən asılı olmayaraq, ehtiyacı olan ailələrə hər kəs dəstək göstərməlidir. Koronavirusa yoluxmamaq üçün evdən çıxa bilməyən vətəndaşlara kömək edilməlidir: "Maddi vəziyyəti normal səviyyədə olan istənilən şəxs ehtiyacı olan ailələrin yanında olmalıdır. Prezident İlham Əliyev son çıxışında qeyd edib ki, karantin rejimi ilə bağlı əhali həmrəylik göstərir. Belə bir çətin məqamda əhalinin bir-birinə dəstək olması müsbət addımdır".

***Günel CƏLİLOVA***

# Azərbaycanda daha 38 nəfərdə koronavirus aşkarlandı, 79 nəfər isə sağaldılaraq evə buraxıldı



**Azərbaycan Respublikasında 38 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 79 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 1436 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 791 nəfər müalicə olunaraq sağalıb, 19 nəfər vəfat edib, 626 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Həmin şəxslərdən 16 nəfərin vəziyyəti ağır, 23 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

# Azərbaycanda daha bir "koronavirus ilki" - sağalanlar yoluxanları sayca 5 dəfə üstələdi

**Leyla Bayramlı:** *"Sağalanların sayının qısa zaman ərzində bu qədər artması dövlət tərəfindən həyata keçirilən tədbirlərin və həkimlərimizin səylərinin nəticəsidir"*

**Ölkəmizdə koronavirusa yoluxanların sayının bu virusdan sağalanların sayından bir neçə dəfə az olması son günlər daha intensiv şəkildə müşahidə edilir. Məlum olduğu kimi, Azərbaycanda koronavirusdan müalicə olunaraq sağalanların sayı artmaqda davam edir.**

Biz hər gün koronavirusdan sağalanların statistikasının yüksələn xətt üzrə dəyişdiyinin şahidi oluruq.

Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən aprelin 19-da yayılan məlumata görə, Azərbaycan Respublikasında 25 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 122 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Qeyd edək ki, bundan əvvəlki günlərdə sağalanların sayının yoluxanların sayını iki dəfə üstələdiyi müşahidə edilirdisə, indi 5 dəfə üstələyir.

Bir gündə 122 nəfərin sağalaraq xəstəxanadan evə buraxılması cəmiyyətdə bu xəstəliyin kökünün tezliklə kəsiləcəyinə böyük inam yaradıb.

Həkim-terapevt Leyla Bayramlı "Bakı-Xəbər"ə bildirdi ki, son həftələr bu virusdan müalicə olunaraq sağalanların sayının tədricən artdığını, virusa yoluxanların isə sayının azaldığını müşahidə edirik. L.Bayramlının sözlərinə görə, bir sutka ərzində 122 nəfərin həkimlərimizin səyi nəticəsində öz sağlamlığına qovuşaraq evə buraxılması müsbət haldır. Günü-gündən sağalanların sayının yoluxanların sayını 6, 7, 8, 10 və artıq dəfələrlə üstələməyə doğru getdiyini qeyd edən mütəxəssisin sözlərinə görə, bunun birinci səbəbi pandemiyanın yayılmasının qarşısının alınması üçün tətbiq edilən karantin tədbirləridir. Digər tərəfdən də koronavirusa yoluxan xəstələrin olduqca yüksək şəraitdə, hər cür vasitələrlə təmin edilmiş şəkildə müalicəsinin həyata keçirilməsi də sağalmanın yoluxmanı bir neçə qat üstələməsi ilə nəticələnib. "Ölkəmizdə pandemiyanın geniş yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlər həqiqətən də böyük effekt verir. Koronavirusdan müalicə olunaraq sağalanların sayının qısa zaman ərzində bu qədər artması dövlət tərəfindən həyata keçirilən tədbirlərin və həkimlərimizin səylərinin nəticəsidir. Karantin rejiminin tətbiqi, onun içində müxtəlif qadağa tədbirlərinin görülməsi daha çox




insanın virusa tutulmasının qarşısını aldı. Günü-gündən virusa yoluxanların sayı azalır. Məsələn, aprelin 18-də Operativ Qərargahın yaydığı məlumata görə, Azərbaycanda koronavirusa 33 yeni yoluxma qeydə alınmışdı, sağalanların sayı isə 62 nəfər idi. Bundan cəmi bir gün sonra isə sağalanların sayının 122 nəfər olduğunu gördük. Məlumatıma görə, Azərbaycanda koronavirusdan müalicə olunaraq sağalanların sayı 700-ü ötüb və bununla da COVID-19-dan sağalan xəstələrin sayı 712 nəfərə çatıb. Üzümüzə gələn həftələrdə daha çox xəstənin sağaldığının şahidi olacağıq".

L.Bayramlı, həmçinin, qeyd etdi ki, başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda xəstələrin müalicəsi üçün yüksək şərait mövcuddur və onların sağlamlığı ilə peşəkar həkimlər məşğul olurlar. Koronavirusla mübarizədə Azərbaycan həkimlərinin böyük səy göstərdiyini deyən L.Bayramlı hesab edir ki, həkimlərimizin əməyinin Prezident tərəfindən xüsusi qiymətləndirilməsi ölkənin tibb personalına ruh yüksəkliyi, mənəvi güc verir.

***İradə SARIYEVA***

# Rusiyada koronavirusdan sonra normal həyata qayıdışın vaxtı barədə proqnozlar - Azərbaycan qonşuları qabaqlaya bilərmi...

**Leyla İbrahimli:** *"Veriləcək qərar pandemiya ilə bağlı vəziyyətin təhlilindən asılı olacaq"*

**Bir sıra ölkələrdə olduğu kimi, Rusiyada da koronavirusla bağlı elan olunan karantin rejiminin uzadılması barədə qərar qəbul olunub. Hətta bildirilir ki, mayın 9-da Rusiyanın paytaxtı Moskva şəhərində Böyük Vətən müharibəsində qələbənin 75 illiyi münasibətilə keçirilməsi planlaşdırılan parad təxirə salınıb.**

Pandemiya ilə bağlı vəziyyəti təhlil edən rusiyalı ekspertlərin qənaətinə görə, RF-də bu proses iyun ayına kimi çəkə bilər. Bunu xəstəliyin yayılması ilə bağlı elan edilən məlumatlar əsasında deyirlər. Həkim-infeksionist Nikolay Malışev deyib ki, Rusiyada COVID-19-un yayılmasının pik həddi iyun-iyul aylarında olacaq. N.Malışev Rusiyada bir çox ekspertlərin bu fikirdə olduğunu qeyd edib: "Rəqəmlər nə qədər əhəmiyyətli olsa da, qorxuya salmamalıdır. Hər gün yoluxanların sayı daha da çox olacaq. Ölənlərin sayı da artacaq".

Məlumdur ki, Azərbaycanda xüsusi karantin rejiminin müddəti mayın 4-nə qədər uzadılıb. Göründüyü kimi, Rusiyada virusdan sonra yenidən həyata qayıdışın iyunda olacağı deyilir. Bəs Azərbaycan necə, bundan daha tez prosesə başlaya bilərmi?

Həkim, tibb üzrə fəlsəfə doktoru Leyla İbrahimli qəzetimizə bildirdi ki, karantin rejiminin sonlandırılmasını həm əhali, həm də dövlət istəyir:"Çünki bunun iqtisadiyyata kifayət qədər ciddi ziyanı dəyir. Ancaq nəzərə almalıyıq ki, biz bu addımalrı məcburiyyət qarşısında atmışıq. Karantin rejiminin tətbiqi ilə ölkədə xəstəliyin kütləvi yayılmasının qarşısının alınması tendensiyasını gördük. Hər gün izlədiyimiz statistikadan görürük ki, ölkəmizdə yoluxanların sayında azalma dinamikası müşahidə edilir. Ən başlıcası isə, sağalanların sayı artıq yoluxanlardan çoxluq var. Bunlar müsbət göstəricidir və bizi ümidli olmağa vadar edir. Təbiidir ki, karantinin tədricən aradan qaldırılmasını zəruri edən başqa faktorlar da var. Biz gördük ki, xüsusi karantin rejiminin uzadılması ilə bağlı qərar qəbul edildi. Ancaq bu müddət birincindən az oldu. Deməli, hər şey göstəricilərdən asılıdır. Karantin rejiminin tətbiqi ilə əldə edilmiş əks-epidemik nailiyyətin davam etdirilməsi karantin tədbir-



lərinin tədricən və nəzarət altında aradan qaldırılmasını şərtləndirə bilər. Nəzərə almalıyıq ki, karantin tədbirlərinin tam aradan qaldırılması ilə ikinci dalğa kütləvi yoluxma baş verə bilər. Epidemioloji qanunauyğunluğa görə, vaksinasiya problemi həll edilməyənə qədər virusun yayılma təhlükəsi qalır.

Onu da vurğulamaq istəyirəm ki, biz karantin rejimindən tədricən çıxdıqdan sonra belə xəstəliyin necə gedəcəyi aparacağımız statistik təhlillərin nəticəsindən asılı olacaq. Təkrar sərt karantin tədbirlərinə keçməmək üçün prosesi tədricən keçməyik və bütün qaydalara əməl etməliyik. Bir daha xatırladıram ki, veriləcək qərar pandemiya ilə bağlı vəziyyətin təhlilindən asılı olacaq. İndiyə qədər olan mənzərə isə bizdə prosesin Rusiya ilə müqayisədə bir qədər əvvəl yumşala biləcəyini söyləməyə əsas verə bilir".

***Məhəmmədəli QƏRİBLİ***

# Qarabağ sülh prosesi indi hansısa formada gedirmi - Mariya Zaxarovanın əsaslandığı "nüanslar"...

## *Yeganə Hacıyeva: "Bu istiqamətdə müəyyən hərəkətlənmə olsa da, ortada nəticə yoxdur"*

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada brifinqdə Rusiya və Azərbaycanın Xarici İşlər nazirlikləri başçılarının son iki telefon danışığının mövzusu barədə suala cavabında bəyan edib ki, koronavirusa baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işlər davam edir:**



"Həqiqətən, koronavirusa baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işlər davam edir. Sualda Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarovla telefon danışıqları xatırlandı. Belə ki, daha əvvəl, aprelin 8-də Lavrovla onun erməni həmkarı Mnatsakanyan arasında telefon danışığı olub. O cümlədən, nizamlanma ilə bağlı məsələlər də nəzərdən keçirilib. ATƏT-in Minsk Qrupunun həmsədrləri (Rusiya, Fransa və ABŞ), həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Kaspşik tərəflərlə müntəzəm əlaqə saxlayır. Davam edən məsləhətləşmələr seriyasında koronavirus infeksiyası mövzusu, onun danışıqlar prosesinə təsiri, həmçinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının bəzi məsələləri diqqət mərkəzindədir. Sərhəddə təmas xəttində vəziyyət müzakirə olunub. Həmsədrlərin ortaq fəaliyyəti barədə məlumatı onların 19 mart tarixli birgə bəyanatından almaq olar. Bəyanat ATƏT-in saytında yerləşdirilib".

Qarabağ sülh prosesi indi hansısa formada gedirmi və Mariya Zaxarovanın əsaslandığı detalları nə dərəcədə əsaslı saymaq olar?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, koronavirus pandemiyası rəsmi görüşləri, tədbirlərin keçirilməsini təxirə salmayıb, lakin onların keçirilmə formatları dəyişdirilib:"Burada qeyd etmək istəyirəm ki, koronavirus pandemiyasının beynəlxalq təcrübəyə gətiridiyi yeniliklərin biri kimi, bundan sonra rəsmi görüşlərin online keçirilməsi təcrübəsi geniş tətbiq olunacaq. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işlərin davam etdirilməsi haqqında danışsaq, onu qeyd edim ki, danışıqlar daha intensivləşir və biz bu ilin sonlarından başlayaraq nizamlanma istiqamətində real addımların şahidi olacağıq. Yəqin xatırlayırsınız, hələ bir neçə il öncə sizin qəzetinizə silsilə müsahibələrdə son illərdə meydana çıxan yeni reallıqların fonunda qlobal siyasətin transformasiyası və bu qlobal prosesdə qütb və güc anlayışlarının dəyişməsi, bu dəyişimdə isə Cənubi Qafqaz regionu və onun açar ölkəsi kimi Azərbaycanın rolunun hansı dərəcədə artması haqqında geniş danışmışdıq. Koronavirus pandemiyası ilə bağlı haqqında danışdığmız proseslər sürətlənəcək və detallara varmadan bir onu deyim ki, dünya siyasətində üsuli-idarə və alətlərin dəyişəcəyi ilə bağlı bir reallıqla üz-üzəyik". Politoloqun sözlərinə görə, bu reallıqda köhnə üsuli-idarəyə uygunlaşmış köhnə alətlər heç nəyə yaramayacaq və ən əsası, yeni dünya düzənində güc və nüfuz haqq etdiyi mövqelərdə dayanacaq:"Odur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işlərin koronavirus pandemiyasının tüğyan etdiyi zamanlarda belə davam etdirilməsi vacib addımdır. Atılan addımlardan da görünür ki, bu istiqamətdə müəyyən hərəklənmə olsa da , ortada nəticə yoxdur. Biz isə konkret nəticənin əldə olunmasının tərəfdarıyıq. Azərbaycan və Rusiya XİN-lərinin bəyanatlarından o da aydın olur ki, davam edən məsləhətləşmələrin mərkəzində koronavirus infeksiyası, onun danışıqlar prosesinə təsiri, həmçinin münaqişənin nizamlanmasına dair məsələlər durur. Əsas müzakirə mövzusu isə, əlbəttə, Ermənistan silahlı qüvvələrinin cəbhənin müxtəlif istiqamətlərindəki təxribatlarıdır. Bir neçə gündür ki Ermənistan tərəfi iriçaplı pulemyotlardan və snayperlərdən də istifadə ilə atəşkəs rejimini pozur. Müzakirələrin detalları haqqında danışmadan öncə onu qeyd edim ki, Azərbaycan tərəfi artıq münaqişənin nizamlanmasında real addımların vacibliyini bildirir. Çünki bu qanunsuz hərəkətləri qınamaq kifayət deyil, bu bəyanatlara uyğun hərəkət etmək və ya başqa sözlə, beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin icrası vacibdir. Azərbaycanın səyləri bunun üçündür və bu, regionda davamlı sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün lazımdır. Danışıqların detalları isə Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinin demoqrafik, mədəni və fiziki xüsusiyyətlərini dəyişdirməsi və yerli tarixi nümunələrdə saxtalaşdırma aparmaqla həyata keçirdiyi fəaliyyətlər və s. haqqındadır. Həmçinin, Azərbaycan XİN rəhbəri Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində niyyətinin bəlli olmaması haqqında fikirlər səsləndirir ki, bunun özü bizim üçün yenilik deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ Konqresinin qondarma "DQR" aşiqi olan bəzi satılmış konqresmenləri hələ də susmur...

## *Arzuxan Əlizadə: "ABŞ Konqresindən buna izahat verilməsi tələb olunmalıdır"*

**ABŞ konqresmenlərindən bəziləri Azərbaycana qarşı təxribatçı fəaliyyətə yol veriblər. Belə ki, Konqresin bir neçə üzvü Dağlıq Qarabağın separatçı rejiminin yeni qondarma lideri Araik Harutyunyana təbrik məktubu göndərib.**



Bununla bağlı erməni mediasının yaydığı məlumata görə, Konqresin dörd üzvünün imzası ilə göndərilən təbrik məktubu Azərbaycanın suverenliyinə və ərazi bütövlüyü hüququna qarşı yönəlmiş çirkin ifadələrlə "zəngindir". Konqresmenlər beynəlxalq hüquq normalarını açıq-aşkar pozaraq, Azərbaycanın suverrenliyinə qarşı fikirlər səsləndiriblər.

Amerika Konqresinin Erməni Məsələləri Komissiyasının üzvü olduqlarından "qürur duyduqlarını" ifadə edən konqresmenlər Frank Palone, Adam Şiff, Ceki Spayer və Qus Bilirakis 31 mart və 14 apreldə keçirilən "seçkiləri" "demokratiyanın təntənəsi" kimi qiymətləndirərək qeyd ediblər ki, onlar ABŞ dövləti ilə qondarma "Dağlıq Qarabağ Respublikası"nın əməkdaşlığı istiqamətində əllərindən gələni edəcəklər. Konqresmenlər qondarma rejimə bundan sonra da əllərindən gələn dəstəyi göstərəcəklərini ifadə ediblər.

Bəlli olur ki, erməni lobbisinə satılmış və illərdir onların maraqlarından çıxış edən bəzi konqresmenlər yenə də öz fitnəkar əməllərindən əl çəkmirlər. Ermənistana göstərdikləri hərtərəfli dəstək azmış kimi, indi də Qarabağdakı separatçılarla yaxından əməkdaşlıq etməyə can atırlar. Hansı ki, Birləşmiş Ştatlar Qarabağdakı separatçı qurumu tanımır və bunu dəfələrlə bəyan edib. Belən olan halda, bəzi ABŞ konqresmenlərinin məlum açıqlaması Azərbaycana yönəlik təxribatdan başqa bir şey deyil.

*"Ermənilər zaman-zaman belə hallardan təbliğat məqsədi üçün böyük məharətlə istifadə edirlər"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, məlum ermənipərəst konqresmenlərin hərəkəti açıq-aşkar təxribatdır: "Ona görə də ABŞ Konqresindən buna izahat verilməsi tələb olunmalıdır. Azərbaycan dərhal buna etiraz etməlidir. Düzdür, ABŞ tərəfi bəyan edəcək ki, hansısa konqresmenin səsləndirdiyi fikirlər ölkənin rəsmi mövqeyi deyil. Ancaq nəzərə almaq lazımdır ki, ABŞ-ın qanunverici orqanının üzvü belə təxribatçı addıma yol verir. Ermənilər zaman-zaman belə hallardan təbliğat məqsədi üçün böyük məharətlə istifadə edirlər.

**Bu baxımdan hesab edirəm ki, Azərbaycan ABŞ-a öz etirazını bildirməlidir. Erməni lobbisinin maraqlarından çıxış edən sözügedən konqresmenlərin təxribatçı hərəkəti bütün müstəvilərdə pislənməlidir. Çünki onların bu hərəkəti separatçıları açıq tərzdə dəstəkləmək deməkdir. Ona görə də sözügedən konqresmenlərin hərəkəti pislənməlidir".**

***Vidadi ORDAHALLI***

# Rusiyada qalmış vətəndaşlarını Bakıya daşımaqda Azərbaycanın modeli və Ermənistanın davranışları - müqayisə edin...

***Elçin Mirzəbəyli:** "...Ermənistanla paralellər aparmalı olsaq, Azərbaycanda təkcə öz vətəndaşlarının ölkəyə təxliyyə edilməsi ilə bağlı deyil, bütövlükdə, COVİD-19 pandemiyasına qarşı mübarizədə həyata keçirilən tədbirlərin tamamilə fərqli olduğunu görə bilərik"*

**Məlum olduğu kimi, COVID-19 pandemiyası ilə bağlı olaraq hazırda Azərbaycanda da xüsusi karantin rejimi tətbiq olunur. Xüsusi karantin rejimi müddətində Azərbaycanda əhalinin sağlamlığının qorunması istiqamətində bir sıra tədbirlər görülür. Ölkə daxilində şəhərlərarası gediş-gəliş məhdudlaşdırılıb, dövlət sərhədi bağlanıb, paytaxtda metropolitenin fəaliyyəti müvəqqəti olaraq dayandırılıb.**

Ölkə sərhədlərinin bağlanmasına qərar verilməmişdən əvvəl martın sonunadək xarici ölkələrdən 15 mindən artıq Azərbaycan vətəndaşı ölkəmizə təxliyyə edilib. Sərhədlər bağlandıqdan sonra isə Azərbaycan dövləti xarici ölkələrdə qalan vətəndaşlarımıza müraciət edərək onlara olduqları ölkədə qalmağı və həmin ölkənin karantin rejiminə riayət etmələrini tövsiyə etməklə yanaşı, vəziyyət düzələn kimi onların ölkəmizə təxliyyə ediləcəklərini bildirib.

Pandemiya ilə əlaqədar olaraq Rusiyada qalan Azərbaycan vətəndaşlarının ölkəmizə təxliyyə edilməsi dövlətin diqqət mərkəzində olan əsas məsələlərdən biridir. Keçən həftə Nazirlər Kabineti yanında Operativ Qərargahdan rəsmən bildirilib ki, aprelin 20-dən sonra Rusiyadakı və Türkiyədəki Azərbaycan vətəndaşlarının təxliyyəsi həyata keçiriləcək.

Bildiyimiz kimi, Azərbaycan vətəndaşlarının xüsusi karantin rejimi müddətində vətənə qayıtmaları ilə bağlı Azərbaycanın Rusiya Federasiyasındakı Səfirliyi və konsulluqlarına daxil olan müraciətləri nəzərə alınaraq www.evegedirem.info saytı yaradılıb. Rusiyanın müxtəlif bölgələrində yaşayan vətəndaşlarımız onlayn vasitəsilə portalda qeydiyyata düşürlər.

Hazırda saytda Rusiyadan 461 Azərbaycan vətəndaşının təxliyyə üçün müraciət etdiyi görünür.

Qeydiyyat beş gün davam edəcək, sonra müvəqqəti olaraq saxlanacaq. Bu vaxt ərzində qeydiyyatdan keçənlərin təhlili aparılacaq, onların təxliyyə planı hazırlanacaq. Bundan sonra qeydiyyat təkrar açılacaq.

Bildiyimiz kimi, Azərbaycan dövləti, ölkəmizin Rusiyadakı Səfirliyi mütəmadi olaraq oradakı vətəndaşlarımızla əlaqə saxlayır və mümkün qədər tezliklə onların vətənə qayıdışını təmin etməyə çalışır. Hazırda Rusiyada Azərbaycan vətəndaşlarının evegedirem.info portalında qeydiyyatdan keçərək vətənə qayıdışlarını reallaşdırmaq üzrə olduqları vaxtda Ermənistan Moskvanın "Domodedov" hava limanında aclıq, səfalət içində qalan vətəndaşlarını yaxın günlərdə təxliyyə etmək niyyətində olmadığını ortaya qoyur.

Ermənistanın Rusiyadakı səfiri Vardan Toqanyan hava limanına toplanan Ermənistan vətəndaşlarını olduqları ərazini tərk edib gecələmək üçün başqa yerlərə, otellərə getməyə çağırıb. Səfirliyin "Facebook" hesabında "Domodedov" aeroportunda ölkəsinə gəlmək istəyən vətəndaşlara səfir bildirib ki, yaxın 4 gün ərzində Moskvadan İrəvana təyyarə reysi nəzərdə tutulmayıb, yəni ermənilər yaxın günlərdə ölkələrinə getməkdən əllərini üzməlidirlər. Səfirlikdən, həmçinin, qeyd edilib ki, siyahıda 262 nəfərin adı var.

Rusiyada qalmış vətəndaşlarını Bakıya gətirmək üçün Azərbaycan dövlətinin davamlı iş apardığını deyən ekspertlər hesab edirlər ki, bu istiqamətdə dövlətimiz ortaya bitkin bir model qoyub. Rusiyadan vətəndaşlarımızın ölkəmizə daşınması üçün dövlətin artıq tədbirlər görməyə başladığını və evegedirem.info portalında vətəndaşların qeydiyyatına başlandığını deyən ekspertlərin fikrincə, bu istiqamətdə Azərbaycanla Ermənistan heç cür müqayisə edilə bilməz. Ekspertlər bildirirlər ki, Ermənistanın hazırda Moskvanın "Domodedov" hava limanında aclıq-səfalət içində olan vətəndaşlarını ölkəyə qaytarmaq üçün heç bir planının olmaması Ermənistanın Rusiyadakı səfirinin "yaxın 4 gün ərzində Moskvadan İrəvana təyyarə reysi planlaşdırılmayıb, buradan dağılın" deyə yaydığı səs yazısından aydın şəkildə görünür deyən ekspertlərin sözlərinə görə, Azərbaycan isə mütamadi olaraq Rusiyadakı vətəndaşlarımızın qeydinə qalıb, onların vətənə qayıdışını mümkün qədər tez reallaşdırmağa çalışıb. Bununla bağlı Azərbaycan Səfirliyinin işlər gördüyünü, səfirlikdə "qaynar xətt"lə paralel olaraq, evegedirem.info portalının da istifadəyə verildiyini əsas gətirən ekspertlər qeyd edirlər ki, karantinə qədər də Azərbaycan dövləti mərhələli şəkildə, xüsusi çarter reysləri ilə vətəndaşlarının ölkəyə təxliyyə etməklə bu məsələdə yeni dəst-xətt ortaya qoydu. Bu gün Azərbaycanın vətəndaşlarını Rusiyadan təxliyyə etməsi prosesi də yeniliklərlə müşayiət olunur.

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistan bütün məsələlərdə olduğu kimi, bu məsələdə də Azərbaycandan çox-çox geridə qalır. "Əslinə qalanda mən nə iqtisadi potensial, nə hərbi güc, nə beynəlxalq nüfuz, nə də digər amillərlə bağlı Azərbaycanla Ermənistanı müqayisə etməyin tərəfdarı deyiləm. Amma region dövlətləri ilə, o cümlədən də Ermənistanla paralellər aparmalı olsaq, Azərbaycanda təkcə öz vətəndaşlarının ölkəyə təxliyyə edilməsi ilə bağlı deyil, bütövlükdə, COVID-19 pandemiyasına qarşı mübarizədə həyata keçirilən tədbirlərin tamamilə fərqli olduğunu görə bilərik. Azərbaycanda prosesə kifayət qədər peşəkar və ardıcıl bir yanaşma var. Ermənistanda isə, bütövlükdə, bütün sahələrdə olduğu kimi, bu prosesin özündə də bir xaos hökm sürür, burada hər hansı bir sistemli idarəetmədən söhbət gedə bilməz. Ermənistan nəinki Rusiyada yaşayan vətəndaşlarını ölkəyə gətirməkdə maraqlı deyil, hətta bunu, faktiki olaraq, heç arzulamır. Çünki buna hazır deyil. Eyni zamanda, təkcə Rusiyadan deyil, digər ölkələrdən də Ermənistan vətəndaşlarının təxliyyə edilməsi ilə bağlı proseslər də indiyə qədər hər hansı bir formada həyata keçirilməyib. Hansı vətəndaşlar öz imkanları çərçivəsində geriyə qayıdıblar. Amma Ermənistan dövləti öz hesabına indiyədək vətəndaşlarını təxliyyə etməyib".



*"...onları Ermənistanda hər hansı bir perspektiv gözləmir"*

E.Mirzəbəyli qeyd etdi ki, hazırda, faktiki olaraq, dünyanın hər yerində koronavirus pandemiyası hökm sürür və bu virusa qarşı mübarizə metodları dövlətlərin potensialının və idarəçilik sisteminin nə qədər çevik olduğuna görə də fərqlənir. "Qənaətimə görə, Azərbaycan Rusiyadakı vətəndaşlarımızın ölkəmizə təxliyyə edilməsi, gətirilməsi məsələsində də kifayət qədər peşəkar və ardıcıl formada hərəkət edir. Ölkəmizə gəlmək istəyən vətəndaşlarımız üçün müvafiq qaydada imkanlar yaradılır və həmin şəxslər ölkəyə gələcəklər və onların yerləşdirilməsi üçün də müfaviq ərazilər ayrılacaq. Bildiyimiz kimi, onlar müəyyən müddətdə karantində qalmalıdırlar. Bu istiqamətdə də ortada Azərbaycan dövlətinin planlı şəkildə hərəkəti var. Amma Ermənistanda bu imkanlar da yoxdur. Bu ölkədə insanlar onsuz da koronavirus oldu-olmadı, Ermənistandan qaçmağa can atırlarsa, onlar bu ölkəyə niyə qayıtsınlar ki? Çünki onları Ermənistanda hər hansı bir perspektiv gözləmir" - deyə E.Mirzəbəyli qeyd etdi.

***İradə SARIYEVA***

# Azәrbaycanın "koronavirus zәncirini iki dәfә qırması vә üç şәrәf nümunәsi" - Prezidentlә xalqın arası ikiqat bәrkidi...

**Hazırda dünyanın ümumi sәviyyәdә koronavirusla mübarizәnin harasında olduğu bilinmәsә dә, tәk-tәk ölkәlәrin hansı ııkin nәticәlәrә yetişdiyi barәdә fikirlәr yürütmәk mümkündür. Tәbii ki, konkretliklәrlә seçilәn ölkәlәr sayca o qәdәr dә çox deyil vә bu sırada Azәrbaycanı fәrqlәndirmәk o qәdәr çәtin olmaz.**

Maraqlıdır ki, bir sıra hәm dә sanballı ölkәlәr barәdә konkret mülahizәlәr "filan tәrifli ölkәnin sәhiyyәsi ağırlığa dözmәdi, filan ölkә ad-sanına yaraşmayan şәkildә xәstәlәrini yerdә-yurdda yatırdı, filan ölkә qoca әhalisini müalcә etmәkdәn imtina etdi, filan ölkә hәmin an xaricdә qalmış vәtәndaşlarını ölkәyә gәtirmәkdәn açıqca imtina etdi vә s." şәklindә olduğu halda, Azәrbaycanı xarakterizә edәn yekunlar mәzmunca fәrqlidir vә başucalığı gәtirә bilәr.

Qürur duya bildiyimiz fәrqli mәzmunlara konkret yanaşmalarımız elә bu yazıda olacaq. Ancaq mütlәq şәkildә ilk olaraq deyәk ki, әgәr koronavirusla mübarizә dövründә Azәrbaycanın fәaliyyәtlәrini әn qısa formada ifadә etmәk seçimi qarşısında qalsaydıq, tәrәddüdsüz seçim belә olardı: "Azәrbaycan öz dövlәtçilik şәrәfini dә, dünyanın hәr yerindә olan vәtәndaşlarını da, iqtisadi-siyasi sistemini dә mәharәtlә qoruya bildi"...

Pandemiya ilә mübarizәnin başladığı ilk günlәrdә yazmışdım ki, Azәrbaycanın hәyata keçirdiyi tәdbirlәr öz ardıcıllığı, bir-birini tamamlaması, komlektarlığı, hәdәfә düzgün yönәlmәsi vә әn az itkilәrlә nisbәtәn böyük mәqsәdlәrә aparmaq gücü ilә xarakterizә edilә bilәr. Havadan götürülmüş mülahizә yox, hәyata keçirilmәyә başlanmış dövlәt tәdbirlәrinin ardıcıl müşahidәsi әsasında gәldiyimiz real qәnaәt idi. Bu elә bir dövr idi ki, dünya ölkәlәrinin bir qismi yaxınlaşan tәhlükәnin miqyasını görmәmәk dәrәcәsindә öz işindә idi, bәzi ölkәlәr mahiyyәti tam anlamadan adda-budda hövlnak addımlar atmaqda idi, az sayda ölkәlәrin isә, tәhlükәni duyaraq nәlәrsә etmәyә can atsa da, ortaya bitkin "sistem mübarizәsi"qoya bilmәdiyini görmәk mümkün idi.

**Prezident hәr kәsi "Hamı üçün hamı ilә birlikdә" prinsipi әtrafında toparlaya bildi...**

Hәr şey yaranmış vә sürәtlә böyümәkdә olan kütlәvi mәhvedici tәhlükәnin tam mәnzәrәsini hәssaslıqla duymaqdan, insanların sağlamlığı üçün şәxsi mәsuliyyәt hissini dәrin yaşamaqdan, әn sәrt tәdbirlәrә getmәyin qaçılmaz olacağına tam hazırlıq iradәsi nümayiş etdirmәkdәn başladı. Özünün bәzi dәyәrlәrini zamanzaman gözümüzә soxan "humanist Qәrbin" bәzi ölkәlәri yaşlıların müalicәsindәn, xaricdәki vәtәndaşlarının geri qaytarılmasından imtina etmәk sәviyyәsindә liberal demokratiyadan üz döndәrәndә Azәrbaycan Prezidenti mәhz bu iradәni ortaya qoyaraq, bütün resursları hәr kәsin hәyatını xilas edәcәk qoruyucu mexanizmin yaradılmasına yönәltdi. Әsas strateji hәdәf vә ona aparan әn optimal yol vә üsullar dәqiq müәyyәn edildi. Әsas hәdәf yaşından, cinsindәn, әqidәsindәn vә yaşadığı bölgәdәn asılı olmayaraq, hәr bir vәtәndaşın vә hәtta ölkәdә olan әcnәbinin real ölüm tәhlükәsindәn xilas edilmәsi kimi müәyyәn edildi. Әslindә tarixdә dövlәtçilik sәviyyәsindә yoluxucu virus pandemiyaları ilә hәr hansı sistemli mübarizә tәcrübәsi olmayan Azәrbaycanın bu qәdәr bitkin xilas modeli ortaya çıxara bilmәsi şәxsәn Prezidentin dәrin fәhmi, tutduğu postdan dolayı xalqın gәlәcәk taleyi üçün daşıdığı mәsuliyyәtin yetәrincә dәrki, prosesləri yönәltmәk üçün polifonik ideoloji potensiala vә tәşkilatçılıq qabiliyyәtlәrinә malik olması sayәsindә mümkün oldu. Hәyata keçirilәn tәdbirlәrin әn böyük tәsir gücü onda idi ki, Prezident hәr kәsi "Hamı üçün hamı ilә birlikdә" prinsipi әtrafında toparlaya bildi. Öyüd-nәsihәtlә, inandırıb tәşviq etmә ilә, yeri gәlәndә isә doğru olaraq B A R M A Q S İ L K Ә L Ә M Ә K L Ә... Onun "polis küçәlәrdә nә qәdәr ona-buna izahat vermәlidir" kimi sadә el dilindә dediyi sözlәrdәki hökm-zabitә qarşıq xalqı epidemiyadan qorumaq yanğısının dәrәcәsini tutmaq çәtin deyildi. Bugünkü faktlar artıq sübut edir ki, Azәrbaycan pandemiyanın yayılma zәncirini hәqiqәtәn qırıb. Zatәn ilk günlәrdәn dövlәtin hәdәfi elә bunun kimi dә müәyyәn edilmişdi. Çox çәtin hәdәfә doğru yolun özü dә asan olmadı...



**Azәrbaycan - dünyada pandemiyanın "daxili lokallaşdırılmasına" nail olmağı hәdәflәmiş vә buna ilk nail olmuş ölkә...**

Әslindә Azәrbaycan pandemiya zәncirini mütlәq әksәr dövlәtlәrdәn fәrqli vә üstün olaraq iki dәfә qırmağı bacardı. Tәrәddüdsüz demәk lazımdır ki, Azәrbaycan indiki nәticәlәrә mәhz bunun sayәsindә nail oldu. Zәnciri iki dәfә qırmağı bacarmayan ölkәlәrin hәlә dә prosesi tam şәkildә nәzarәtә ala bilmәdiklәrini biz dә görürük. Azәrbaycana giriş-çıxışın tam nәzarәtә götürülmәsi vә dayandırılması, habelә xaricdә qalmış minlәrlә vәtәndaşımızın gәtirilәrәk müvәqqәti tәcrid edilmәsi pandemiya zәncirini ilk qırdığımız nöqtә oldu. Xaricdәn ölkәyә gәlişlәrin әsas yoluxma mәnbәyinә çevrilmәk rusqi aradan qaldırıldı. Ardıcıl olaraq növbәti hәdәf ölkәnin içindә insanların bir-birini yoluxdurması kimi risq mәnbәyini neytrallaşdırmaq idi. Azәrbaycan bu mәnada bәlkә dә dünyada pandemiyanın yayılmasının "daxili lokallaşdırılmasına" nail olmağı hәdәflәmiş vә buna ilk nail olmuş ölkәdir. Belәliklә, Prezident pandemiyanın yayılmasının qarşısını "xaricdәn tәcrid, daxildә isә lokallaşdırma" kimi sadә vә mәntiqli düsturla ala bildi. Evindә qalmağa mәcbur edilәn, yaxınlarından tәcrid olunan, cәrimәlәnәn, hәtta bәzәn inzibati hәbsә atıldığı üçün küsüb-inciyәn vәtәndaşlar bütün bunların xalqı qorumaq amalının zәruri elementlәri olduğuna indiki nәticәlәrin fonunda qiymәt verir. Bu gün Azәrbaycanın hәr yerindәn sadә insanlar Prezidentә mәktublar yazır, xüsusilә dә koronavirusla mübarizә tәdbirlәrinә öz münasibәtlәrini ifadә edirlәr. Bәzilәri arxasında yüz minlәrlә, milyonlarla insanın iradәsi dayanan mәktublara, tәәssüf ki, "tәşkil olunur" kimi qәrәzli vә sәthi yanaşma sәrgilәyir, әslindә xalqın iradәsinә hörmәtsizlik edirlәr. Mәgәr xalq görmür ki, Azәrbaycanda virusa qarşı görülәn tәdbirlәr başqa ölkәlәrdәn miqyasına vә nәticәsinә görә necә fәrqlәnir?! Mәgәr inkar etmәk olar ki, Azәrbaycan yoluxma sayı ilә müalicә olunanların sayı arasında müsbәt nisbәt dinamikasına nail olmuş ilk ölkәlәrdәn biridir?! Hәm dә bu fantastik nәticәni İran kimi böyük yoluxma risqi daşıyan ölkәnin bir addımlığında, Çin kimi әsas risq ocağı olan ölkә ilә sıx gediş-gәliş әlaqәlәrinin olduğu şәraitdә әldә edirik. Yalnız qәrәzli düşünәn adamlar tәrsliklә inkar edә bilәr ki, Azәrbaycan pandemiyaya qarşı mübarizәni eyni arada iqtisadi fәallığı vә әhalinin rifahını qorumaq mıqsәdlәri ilә paralel uğurla apara bilәn tәk ölkәdir. Dünyanın hansı ölkәsindә hәm pandemiya ilә mübarizә gedir, hәm dә dövlәt milyon yarımdan çox işçinin әmәk haqqının әsas hissәsini ödәmәyi öz üstünә götürür, 600 mindәn çox aztәminatlı vәtәndaşına ayda 190 manat ödәmәyi bәyan edir, ünvanlı sosial yardım alan ailәlәrin sayını birdәn-birә 80 minә çıxarır, 600 minә yaxın işçiyә orta aylıq 712 manat civarında pul ödәyir, heç bir sosial proqramın tәxirә salınmayacağını xalqın qarşısında bәyan edir, şәhid ailәlәri vә mәcburi köçkünlәrә tәk bu il üstüstә 8500-dәn çox mәnzil vermәk hәdәfinә doğru inamla gedir, ziyan çәkmiş sahibkarlara kompensasiya ödәyir, işçini ixtisar edәn sahibkarı güzәştsiz şәkildә cәzalandırır, müәyyәn kateqoriya tәhsil haqqı ödәmiş tәlәbәlәrin pulunu geri qaytarır, "ağırlıq xalqın yox, onun yanında duran dövlәtin çiyinlәrinә düşәcәk" kimi dәrin humanist-sosial prinsipin әsasında fәaliyyәt göstәrir vә sair...

**Prezident xalqın tәşәkkür mәktublarını haqq etdi...**

Xalq fәrqinә varır ki, ortada cәmiyyәtin dövlәtlә birliyinin vә hәmrәyliyinin hәqiqәtәn güclәndirilmәsinә yönәlik sәmimi vә hәm dә dәmir bir iradә var. Bu sәmimi iradәni xalqın aydın görә bildiyi qәdәr gerçәk bir fakt ortada olduğu halda, xalqın tәşәkkür dolu müraciәtlәrinә uyğunsuz donlar biçmәk hamının Allaha tapındığı indiki anda kimlәrinsә haqdan dönüş "nümunәsidir". Azәrbaycanın koronavirusla mübarizәsinin özü dә, ondan çıxış planları da düşünülmüş sistemdir.

Bu sistem әvvәlcә dövlәt sәrhәdlәrinin bağlanması, ardınca, tәlәbәlәr daxil, xaricdәki vәtәndaşların dövlәt hesabına ölkәyә daşınması, daha sonra daxilimizdә şәhәrlәrin, bölgәlәrin vә insanların bir-birindәn tәcrid edilmәsi, kütlәvi toplantıların tәxirә salınması, evlәrdә qalmaq vә sair kimi elementlәrin әsasında tәdricәn qurulodu.

Azәrbaycanın koronavirusla mübarizәsinin fәrqlәndirici keyfiyyәtlәrindәn biri dövlәtin şәrәfini, yoluxmuş xәstәnin vә karantinә alınmış vәtәndaşın şәrәfini, bütünlüklә cәmiyyәtin şәrәfini qoruya bilmәkdir. Dövlәtimiz Ermәnistansayağı torbasını çiyninә ataraq dövlәtçilik şәrәfini dilәndiyi qapılarda qoymadı. BVF-dәn pul istәyәn 155 ölkә arasında olmamağımız xırda fakt deyil. Virusa yoluxmuş xәstәlәrimizin super şәraitli xәstәxanalara alınması, xәstәsini az qala at tövlәsinә soxan ölkәlәrdәm fәrqli olaraq, "pasiyent şәrәfi" deyilәn vacib şәrәf göstәricisinә dövlәt qayğısı deyilmi?!. Әgәr kimsә әmәk haqqından mәhrum olmadısa, әksinә, әmәk haqları vә müavinәtlәr bir az da artırıldısa, 15 mindәn çox tәnhaya dövlәt sosial xidmәt mexanizmi qurulduısa, cәmiyyәtin rifahına şәrәfli münasibәt başqa cür necә olur ki...

Mәn Prezidentin sözlәrinә şәrikәm - Azәrbaycan bәladan güclәnәrәk çıxacaq... Bu isә mәnim öz sözümdür - Prezident xalqın tәşәkkür mәktublarını haqq etdi...

*Aydın QULİYEV*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İrəvan Qarabağ məsələsində Bakının qəti addımlar tələbi qarşısında... Azərbaycan XİN dünyadan sözdən işə keçilməsini istədi

**Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində atılan addımlara Ermənistan tərəfindən yaradlan manelər bu gün beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə pislənir. Bunun daha bir sübutu zəbt edilmiş ərazilərdə təşkil edilən son "seçkilərdə" özünü bir daha qabarıq şəkildə büruzə verdi.**

Belə ki, bütün aparıcı beynəlxalq qurumlar, çoxlu sayda dövlətlər Ermənistanın "seçki" şousunu birmənalı şəkildə pislədi.

Təbii ki, dünya miqyasında sərgilənən bu mövqe Azərbaycan tərəfindən məmnunluqla qarşılanır. Amma rəsmi Bakı hesab edir ki, müvafiq bəyanatlarla yanaşı, dünyanın Ermənistana qarşı əməldə də artıq real addımlar atması olduqca önəmlidir. Çünki məhz bu halda konfliktin dinc müstəvidə həlli reallaşa bilər. Əks təqdirdə məsələnin hərbi çözümü aktuallığını saxlamaqda davam edəcək. Bu səbəbdən Bakı bəyan edir ki, beynəlxalq birlik artıq sözdən əmələ keçməlidir. Bunu xarici işlər naziri Elmar Məmmədyarov "The London Post" qəzetinə müsahibəsində bir daha gündəmə gətirib. Nazir qeyd edib ki, Ermənistanın Dağlıq Qarabağda qanunsuz fəaliyyətini pisləmək kifayət deyil, bu bəyanatlara uyğun hərəkət etmək lazımdır. Onun sözlərinə görə, Ermənistan tərəfindən davam edən hərbi işğal və Azərbaycan ərazilərinin etnik təmizlənməsi fonunda Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "seçkilər"in keçirilməsi Azərbaycan Konstitusiyasının, o cümlədən BMT Nizamnaməsi və 1975-ci il Helsinki Yekun Aktı, eləcə də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin açıq şəkildə pozulmasıdır və buna görə də heç bir hüquqi qüvvəyə malik olmayacaq. E.Məmmədyarov xatırladıb ki, Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində keçirdiyi "seçkilər"lə bağlı bəyanat verib və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində seçkilərin yalnız Azərbaycanın Konstitusiyası çərçivəsində və bölgənin bütün əhalisinin tam iştirakı ilə keçirilə biləcəyini vurğulayıb:"Belə seçkilər isə yalnız erməni işğalçı qüvvələrinin geri çəkilməsindən, qovulan azərbaycanlı əhalinin öz doğma yerlərinə qayıtmasından və bölgənin erməni və azərbaycanlı icmaları arasında dialoq, eləcə də əməkdaşlığın bərpasından sonra mümkün olacaq". Nazir vurğulayıb ki, əvvəllər olduğu kimi, bu dəfə də beynəlxalq ictimaiyyət Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "seçkilər"i qəti şəkildə rədd edib və bunun qeyri-legitimliyini elan edib:"Bu sırada Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, NATO, Türk Şurası, GUAM, TÜRK PA və digər beynəlxalq təşkilatlardan, eyni zamanda ATƏT-in Minsk Qrupunun həmsədrlərindən və çoxsaylı dövlətlərdən gəlmiş ayrı-ayrı bəyanatları qeyd etməliyik. Əlbəttə ki, bu qanunsuz hərəkətləri pisləmək kifayət deyil, bu bəyanatlara uyğun hərəkət etmək lazımdır, yeni beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin icrası vacibdir. Azərbaycanın səyləri bunun üçündür və bu, regionda davamlı sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün lazımdır". Beləliklə, Azərbaycan növbəti dəfə məsələni kifayət qədər açıq qoyur və dünyadan qəbul etdiyi qətnamələrə, eləcə də digər sənədlərə müvafiq addımlar atmasını istəyir. Bakı bildirir ki, Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "seçkilər" beynəlxalq hüquq normalarının və müvafiq beynəlxalq konvensiyaların açıq şəkildə pozulması deməkdir. Aydındır ki, bu cür siyasət heç bir halda münaqişənin sülh yolu ilə həllinə nail olmaq kimi addımlarla uzlaşmır. Elə bu səbəbdən Azərbaycan tərəfi beynəlxalq ictimaiyyətin BMT Nizamnaməsində təsbit edilmiş qaydalara əsaslanan dövlətlərarası münasibətlərin norma və prinsiplərinə uyğun olaraq təxirəsalınmaz tədbirlər görməsini tələb edir. əks təqdirdə, yuxarıda qeyd olunduğu kimi, məsələnin hərbi həlli qaçılmaz olacaq. Elə Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov da məsələyə məhz bu prizmadan yanaşır. O ilk növbədə xatırladır ki, beynəlxalq ictimaiyyət, o cümlədən də Rusiya Qarabağda baş tutan qondarma "seçkiləri" tanımır və Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi hesab edir:"Eyni zamanda, Rusiya Dağlıq Qarabağın taleyinin müəyyənləşdirilməsində həm Ermənistan, həm də Azərbaycan icmalarının iştirak etmələrini tələb edir. Bu müəyyənlik BMT-nin elan etdiyi, Azərbaycan Respublikasının ərazi bütövlüyünü ifadə edən prinsiplərə uyğun olmalıdır. Bu, Rusiyanın mövqeyidir. Amma BMT-nin elan etdiyi prinsiplərin reallaşması üçün də qəti addımların atılması olduqca önəmlidir. Məhz bundan sonra məsələnin sülh yolu ilə həllindən bəhs etmək olar. Aydındır ki, bu addımların yoxluğu, sadəcə savaşı yaxınlaşdırır. Dünya isə bu savaşı istəmir. Amma bunun üçün də hərəkət etməsi lazımdır".

Rusiyalı politoloqun fikrincə, beynəlxalq birliyin müvafiq addımı olmadığı halda Ermənistan bundan faydalanmağa çalışır, hətta zəbt olunmuş ərazilərdə qondarma "seçkilər" təşkil edir: "Son qondarma "seçkilər" isə Ermənistanın baş naziri Nikol Paşinyan üçün çox vacib idi. Paşinyan inqilabi yolla əldə etdiyi hakimiyyətini qorumaq, bundan populyar olmaq üçün istifadə etmək istəyir. Bunun üçün isə iqtisadi artım tələb olunur. İqtisadi artım üçün blokadanın aradan qaldırılması lazımdır. Məhz buna görə Paşinyan Ermənistanın Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş ərazilərin Azərbaycana verilməsini özündə ehtiva edən"Kazan formulu"na əməl etmək istəyir. Amma o bunu etməkdən çəkinir. Çünki radikallar tərəfindən məhv ediləcəyindən qorxur. Odur ki, "Kazan formulu" üzrə kompromisə görə siyasi məsuliyyəti Dağlıq Qarabağın erməni icmasının üzərinə daşımağa, istəklərinin siyasi müttəfiqləri tərəfindən ifadə edilməsinə çalışır. Bax buna görə də "seçkilər" onun üçün çox əhəmiyyətli idi. Amma Paşinyanın sonadək "Kazan formulu"na riayət edə biləcəyi də qətiyyən inandırıcı sayılmır. Elə buna görə işğal siyasətinin dayandırılması üçün dünya dövlətlərinin daha qəti addımlar atmasına ehtiyac var". Elə Bakı da uzun müddətdir dünyadan məhz bunu tələb edir. Digər tərəfdən, başqa parametrlər baxımından da Azərbaycan dünyanın Qarabağ məsələsində daha konkret addımlar atmasını istəyir. Söhbət işğal altındakı ərazilərin terror, narkotik mənbəyi kimi hələ də ciddi təhdid mənbəyi olmasından gedir. Ehtiyatda olan polkovnik-leytenant İsa Eldaroğlu bu xüsusda yenidən diqqəti ona yönəldir ki, nəzərdən qaçırılması düzgün olmayan vacib amil işğal edilmiş ərazilərimizin Ermənistan rəhbərliyi tərəfindən narkoticarət obyektinə çevrilməsi və bundan yüz milyonlarla dollar gəlir əldə edilməsidir:"Bu narkoticarətdən əldə olunan gəlirlərin bölünməsi zamanı tərəflər arasında münaqişələrin, silahlı qarşıdurmanın, ölümlə nəticələnən qanlı olayların baş verməsi barədə xarici mətbuatda, elə Ermənistan mətbuatında da yetərincə məlumatlar var. Narkoticarətdən yetərincə pay ala bilməyən, narkotik satışının həyata keçirilməsində iştirak edən kriminal qruplar və əldə olunan gəlirləri nəzarətə götürməyə can atan Paşinyan rejimi həm də buna görə son "seçkilərin" nə yolla olursa-olsun keçirilməsində, həmçinin ona lazım olan adamın "prezident kürsüsünə" əyləşdirilməsində maraqlı idi. Önəmli olan amillərdən biri də işğal edilmiş ərazilərimizdən qanunsuz silah alveri və terrorçu yetişdirən təlim mərkəzləri kimi istifadə edilməsidir. Paşinyan rejimi bu sahəni də nəzarətə götürməyə və onlardan gələcəkdə öz məqsədləri üçün istifadə etməyə ilk gündən can atırdı. Qanunsuz silah və narkotik alverindən əldə edilən gəlirlər çoxdan Paşinyanın iştahasını artırıb. Həmçinin xalqı boş xəyallarla aldadaraq hakimiyyətə yiyələnmiş Paşinyan işğal edilmiş ərazilərimizdə yetişdirilən terrorçuların nə vaxtsa onun özünə qarşı istifadə edilməsindən qorxur. Buna görə də Paşinyanın bütün bu prosesləri tam nəzarətə götürmək üçün radikal addımlar atacağı gözlənilən idi. Və kim zəmanət verə bilər ki, Qarabağda hakimiyyət dəyişikliyi nəticəsində Paşinyan əldə etdiyi bu imkanlardan gələcəkdə öz opponentlərinə, şəxsi düşmənlərinə və başqa ölkələrin vətəndaşlarına qarşı istifadə etməyəcək? Ən diqqət çəkmək istədiyim məqam Qarabağda yaşayan ermənilərin həyatlarının dəyəridir. İrəvanda təmtəraq içində üzən Paşinyan hakimiyyəti üçün Qarabağda yaşayan ermənilər özləri də, onların həyatları da dəyərsizdir. "Seçkilərin" keçirilməsi ilə açıq-aşkar nümayiş etdirildi ki, işğal altında olan ərazilərimizdə məskunlaşan, buraya yerləşdirilən hərbi hissələrdə xidmət edən hərbçilərin və onların ailələrinin bir mandat, bir kreslo qədər qiyməti yoxdur. Belə olmasaydı, Paşinyan başda olmaqla, Ermənistan hakimiyyəti öz ambisiyaları səbəbindən, şəxsi maraqları ucbatından koronavirus pandemiyasının dünyanı silkələdiyi, yüz minlərlə insanın həyatına son verdiyi bir zamanda onsuz da bədbəxt, qeyri-insani şəraitdə yaşamağa məcbur edilən Azərbaycan vətəndaşı olan Qarabağ ermənilərini seçkilərə sürükləməzdi. Bu səbəbdən də diqqət yetiriləsi əsas məqamlardan biri separatçı rejimin və Ermənistan hakimiyyətinin əhaliyə qarşı amansızlığıdır. Paşinyan hakimiyyətinin hazırkı məqamda, pandemiya elan edildiyi bir vaxtda tələm-tələsik "seçkilər" keçirərək minlərlə insanın, həm də işğal etdiyi ərazidə yaşayan və başqa ölkə vətəndaşları olan sakinlərin həyatını təhlükəyə atması insanlığa qarşı cinayət kimi dəyərləndirilməli və Ermənistan hakimiyyəti beynəlxalq hüquq qarşısında cavab verməli və cinayət məsuliyyətinə cəlb edilməlidir".

Bu qeyd edilənlərdən bir daha bəlli olur ki, dünyanın Qarabağ məsələsində müvafiq əməli addımlar atması işğal altındakı ərazilərdə olan ermənilərin xilası baxımından da vacib önəm kəsb edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Qondarma "DQR"in "prezidenti" Paşinyanın qəbulunda - beynəlxalq vasitəçilər buna da susur...

**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsindəki separatçıların yeni başçısı Araik Arutyunyanı qəbul edib. Erməni mediasının verdiyi məlumata görə, İrəvanda baş tutan görüşdə işğal bölgəsindəki son durum müzakirə edilib.**

***Samir Adıgözəlli:*** *"Bu cür açıq saxtakarlığa susan vasitəçilərdən hansı ədalətli mövqeni gözləmək olar?"*

Araik Arutyunyan baş nazirə həyata keçiriləcək proqramları və tədbirlər planını təqdim edib. Maraqlıdır ki, dünya birliyi və xüsusən də vasitəçilər bu biabırçı mənzərə ilə bağlı hər hansı mövqe ortaya qoymur.

İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətdə olduğu bu iki il ərzində atdığı addımlara nəzər salsaq, pandemiyanın onun işinə necə yaradığına şahidlik edərik:

"Məhz bütün dünyada koronavirusla bağlı kütləvi tədbirlərin təxirə salındığı zamanda Paşinyanın təkidi və planı əsasında qondarma "DQR"-də saxta "parlament və prezident" seçkiləri keçirildi. Paşinyan öz adamını ora rəhbər təyin etmək üçün hətta ikinci tur şousuna belə getdi. Ermənistan kimi kiçik ölkədə karantinlə vəziyyətə nəzarət mümkün olduğu halda, o, ölkədə fövqəladə vəziyyət elan etdi. Son qərarı isə siyasi rəqiblərini bu adla işdən azad etmək oldu. Həmin biabırçı seçkini ən nüfuzlu beynəlxalq təşkilatlar və dövlətlər tanımadı. Ancaq təəssüflə qeyd etməliyəm ki, bu bəyanatlar yalnız kağız üzərində qalır. Azğınlaşmış ermənilər öz bildiklərini edirlər. ATƏT-in Minsk Qrupu, demək olar ki, təsir gücü olmayan təsisata çevrilib. Biz dəfələrlə vurğulamışıq ki, erməniləri çirkin əməllərindən hansısa bəyanatlar vasitəsilə çəkindirmək olmur. Uzun illərdi ki, onlar qondarma rejimdə müxtəlif adlarla "seçki" keçirirlər. Heç birində də həmin şouya dəstək verən tapılmayıb. Ancaq proses davam edir. Separatçıların məqsədi də budur ki, adları daha çox hallansın. Hətta seçkini tanımamaqla bağlı verilən bəyanatlar belə onların adını gündəmdə saxlamış olur. Bu səbəbdən də, həmin prosesi dayandırmaqla bağlı effektli mexanizmlər fikirləşmək lazımdır. Biz bunu dəfələrlə təklif etmişik. Demişik ki, saxta "seçkiləri" keçirən Ermənistandır və ona qarşı konkret sanksiyalar tətbiq edilsin. Bunlar olmayıb. Nəticə göz qabağındadır. "Seçkilərdən" dərhal sonra saxta "prezident" Paşinyanın qəbuluna gedib.




Bu faktın özü beynəlxalq aləmə verilən saymazlıq mesajıdır. Təəssüflər olsun ki, sülh prosesinin nizamlanmasında vasitəçi olan dövlətlər bu rəzilliyə susur. Onların birbaşa borcudur ki, Paşinyanı "saxta seçkinin" qalibini qəbul etdiyinə görə sərt tənqid etsinlər. Buna da münasibət bildirməyəcəklərsə, bəs onda nə zaman danışacaqlar? Bizə ütülü, diplomatik ifadələrlə bəzədilmiş bəyanatlar gərək deyil. Konkret, sadə dildə bu məsələyə münasibət bildirsinlər. Niyə Ermənistan başqasının ərazisində "seçki" keçirir, amma cəzasını almır? Bu cür açıq saxtakarlığa susan vasitəçilərdən hansı ədalətli mövqeyi gözləmək olar?"

***Məhəmmədəli QƏRİBLİ***

# "Amnesty İnternational" Paşinyanın "demokratik ölkə" oyunu əleyhinə gediş etdi - məhkəmə basqı altında...

**"Amnesty İnternational" təşkilatı aprel ayında açıqladığı illik hesabatında Şərqi Avropa və Orta Asiyanın bir çox hökumətlərinin etirazlara, ifadə azadlığına və vətəndaş cəmiyyətlərinə basqılar tətbiq etdiyi və insan haqlarına qarşı qəddar taktikalardan istifadə etdiyi bildirilib.**



***Hatəm Cabbarlı:*** *"Ermənistanda hüquq-mühafizə, məhkəmə sisteminə qarşı hökumətin linc etmə kampaniyasına daha sərt münasibət bildirmək olardı"*

2019-cu ildə insan haqları müdafiəçiləri, jurnalistlər, qeyri-hökumət təşkilatları və etirazçılar artan təzyiqlərlə üzləşsələr də, hökumətlərinin cəzalandırılması üçün dinc nümayişlərini davam etdirib.

Hesabatın Ermənistana aid hissəsində hökumətin fəaliyyəti kəskin tənqid edilir. Xüsusilə də 2019-cu il boyu Ermənistanda məhkəmə sisteminə hökumətin güclü basqılarının olduğu qeyd edilir. Bu xüsusda qeyd olunur ki, Ermənistanın eks-prezidenti Robert Köçəryan 2019-cü ildə üç dəfə həbs olunub. Ona qarşı irəli sürülən ittihamların siyasi mahiyyəti olduğu bildirilir. Ermənistanda məhkəmə prosesinin basqı altında olması barədə bəyanat Paşinyanln demokrariya oyununa zərbə sayıla bilərmi? Nəzərə alsaq ki, məhkəmə hakimiyyətinin müstəqilliyi demokratiyanln çox həlledici şərtlərindən biridir, Paşinyanın demokratiya adı ilə imitasiya etməsinə hansı aydınlıq gətirilir?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nikol Paşinyan baş nazir seçiləndən sonra öz siyasi rəqiblərini tabeliyində olan inzibati resursların hesabına sıradan çıxarmağa, onlara təzyiqlər göstərməyə başladı:"Bu məsələdə Paşinyan hakimiyyətin başqa qolu olan məhkəmə sisteminin də "köməyindən" yararlandı. Xüsusilə də Ermənistanın sabiq prezidenti Köçəryan üzərində aparılan oyunlar biabırcı mənzərəni özündə əks etdirdi. Biz həmin prosesdə gördük ki, məhkəmələr Köçəryanla bağlı bir neçə dəfə qərarlarını dəyişməyə məcbur oldular. Robert Köçəryanı iki dəfə həbsdən azad edən hakimə də ciddi təzyiqlər oldu. Paşinyan həmin vaxt insanları məhkəmənin önünə çağırmış, hüquq sisteminin normal fəaliyyətinə əngəl yaratmışdı. Bundan başqa, Ermənistan hakimiyyəti konstitusiya məhkəməsinə də ciddi təzyiqlər göstərir. Onlar Köçəryanın vəkillərinin tələbi ilə cinayət prosesual məcəllənin 35 və 135-ci maddəsinin 2-ci bəndini tövsif edərkən bunun konstitusiya ilə ziddiyyət təşkil etdiyinə dair qərar verib. Həmin qərar Köçəryanın həbsdən azad olunması üçün əsas sayılırdı. Hökumət bundan sonra konstitusiya məhkəməsinin sədri ilə düşmən oldu. Paşinyan sədrdən bu mövzudan əvvəl də istefa verməyi tələb etmişdi. Sədr jurnalistlər qarşısına çıxıb hökumətin təzyiqləri barədə açıq bəyanat verdi. Paşinyanın bu cür təzyiqləri hələ də davam edir. Belə təzyiqlər davam etdiyi dönəmdə Paşinyan hakimiyyətinin özü də zəifləyir. Beynəlxalq təşkilatın hesabatında Ermənistanda yaşananları çox yumşaq dillə ifadə edib. Ermənistanda hüquq-mühafizə, məhkəmə sisteminə qarşı hökumətin linc etmə kampaniyasına daha sərt münasibət bildirmək olardı. Hətta Paşinyan ölkədə referendum keçirib, konstutisiyanı dəyişməyə çalışdı ki, konstutisiya məhkəməsinin hakimlərini istefaya göndərmək üçün asan mexanizm əldə etsin. Həmin referendumun keçirilməsi koronavirus təlɘbi ilə təxirə salınıb.

Pandemiya aradan qalxandan sonra Paşinyan hökuməti hakimlərin işdən azad olunması üçün səylərini davam etdirəcək. Yəni referendumu mütləq keçirəcəklər. Bu tamamilə antidemokratik addımlar bir daha sübut edir ki, Paşinyan əsl avtoritar üsülidarə yaradıb. Müxalif qüvvələr bütün bu hesabatları beynəlxalq qurumlara təqdim ediblər. Hesab edirəm ki, beynəlxalq qurum Ermənistanla bağlı daha sərt mövqe tuta bilərdi. Çünki bunun üçün kifayət qədər ciddi faktlar və əsaslar mövcuddur".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan-kilsə qarşıdurması təhlükəli mərhələdə... Erməni baş nazir kilsə yeparxiyasına ləkələyici ittihamlar əmri verdi

**Son günlərdə Ermənistanda hakimiyyətlə kilsə qarşıdurmasının daha geniş vüsət alması müşahidə olunur. Belə görünür ki, kilsənin də timsalında Paşinyan iqtidarına qarşı yeni bir müxalifət yaranır. Buna əsas səbəb Paşinyanın kilsə rəhbərliyini fəyişdirmək fikrindən vaz keçməməsi, sonuncunun isə "Qarabağ klanı" ilə yaxınlığıdır.**





Hələ ötən ildən baş nazir Nikol Paşinyan bəyan edir ki, Ermənistan xalqı hökumətin Ümumerməni Kilsəsinin daxili işlərinə qarışmağı tələb edərsə, hakimiyyət təcili olaraq bunu müzakirəyə çıxarıb uyğun addımlar atacaq. Onun sözlərinə görə, Ermənistan hökumətinin liberal siyasətini bəzi siyasi qüvvələr bəzən səhv olaraq zəiflik kimi dəyərləndirir:

"Bu hal artıq bəzi ruhani dairələrdə də müşahidə edilməkdədir. Bizim kilsənin daxili işlərinə müdaxilə etməyəcəyimiz barədə dediklərimizi "kilsədəkilər" zəiflik kimi qiymətləndirirlər. Onlar çox sərt əks-zərbə alıb birbaşa və dolayı olaraq diz çökəcəklər". Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, Paşinyan kilsə rəhbərliyinin dəyişməsində də maraqlı olduğunu gizlətmir. Bu hal Ermənistan katolikosu II Qareginin sabiq prezident Robert Köçəryana azadlıq tələb etməsindən sonra yenidən aktuallaşıb. Xatırladaq ki, bu günlərdə Qaregin erməni mediasına açıqlamasında Robert Köçəryan barəsində həbs qətimkan tədbirinin dəyişdirilməsinin zəruriliyini bildirib:"Ermənistanın ikinci prezidenti Robert Köçəryana gəldikdə, hakimlərin prezidentin sağlamlığı ilə bağlı peşəkar fikirlərinə toxunaraq, ədalət mühakiməsinin həyata keçirilməsi ilə yanaşı bütün qabaqlayıcı üsul və tədbirlərin görülməsini, o cümlədən vəziyyətin daha da gərginləşməməsi üçün ehtiyat tədbirinin dəyişdirilməsini vacib sayırıq". Katolikosun bu açıqlaması Ermənistan hakimiyyətinin xoşuna gəlmədi və gözlənildiyi kimi, Paşinyan komandası informasiya hücumu təşkil etdi. Müxtəlif hökumət rəsmiləri katolikosları qınayan açıqlamalar verdi. Ermənistan parlamentinin vitse-spikeri Alen Simonyan hətta bildirdi ki, minlərlə Ermənistan vətəndaşı artıq çoxdan katolikosun dəyişdirilməsini tələb edir:"Mən deyərdim ki, Ermənistanın minlərlə vətəndaşı artıq çoxdan katolikosun dəyişdirilməsini tələb edir. Düşünürəm ki, Qaregin illərlə səssiz qalıb, bu gün isə pulu bol olan Köçəryanın ilkin həbsinin dəyişdirilməsinin zəmanətçisi kimi çıxış etmək qərarına gəlib".

Ancaq Paşinyan və komandası bununla kifayətlənməyərək, kilsə rəhbərliyini dəyişdirmək planlarını yenidən işə salıb. Artıq Paşinyanın ailəsinə aid "Aykakan Jamanak" belə bir yazı ilə çıxış edib ki, Paşinyan Köçəryanın azadlığını tələb edənləri bağışlamayacaq. Bu xüsusda Paşinyan hüquq-mühafizə orqanlarının rəhbərlərini yanına dəvət edərək, kilsə rahiblərini cinayətə cəlb etmək üçün hər cür səy göstərmələrini tapşırıb. Bundan başqa, hakimiyyət nəzarəti altında olan media vasitələrinə ləkələyici faktlar əsasında kilsəyə qarşı hücuma keçmək tapşırığı verilib. Artıq Milli Təhlükəsizlik Xidmətinin İstintaq departamenti kilsə yeparxiyasından birinin rəhbərinə qarşı ittiham irəli sürüb. Söhbət Ararat Patriarxal Yeparxiyasının lideri Navasard Kçoyandan gedir.

Məlumdur ki, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Afrikanın illərdir qanlı vətəndaş müharibəsi içərisində olan ölkəsi Sierra-Leonada almaz biznesi qurub. Burada onun əsas tərəfdarlarından biri məhz kilsədir. Hər şey almaz biznesi ilə məşğul olan iş adamı Paylak Ayrapetyanın ona məxsus olan əmlakın və vəsaitin Kiprdə qeydiyyatda olan "Wlispera Holdings Limited" offşor şirkəti tərəfindən mənimsənilməsi barəsində açıqlamasından sonra ortaya çıxıb. Kiprin rəsmi dövlət qeydiyyat sənədlərinin təqdim olunmasından sonra aydın olub ki, "Wlispera Holdings Limited" offşor şirkətinin səhmdarlarından biri məhz Navasard Kçoyandır. Paşinyan bu prosesin qanundankənar olmasını əsas gətirərək Navasard Kçoyanı sıradan çıxarıb. Bununla kilsə rəhbərliyinə əsaslı zərbə vurmağa hazırlaşır. Paşinyan, eyni zamanda, kilsə daxilində inqilaba səbəb ola biləcək katoliklər arasında cinayət işləri və qalmaqallı media xəbərləri ilə Qareginə qarşı narazılığı artırmağı hədəfləyir. Bu fonda erməni mətbuatında Paşinyanın yüksək vəzifəli ruhanilərə qarşı materiallar toplamağı və kilsə sahəsində də inqilaba nail olmağı əmr etdiyi barədə davamlı söhbətlər açılır. "Politik.am" nəşri yazır ki, Ermənistan hökuməti qarşısına kilsə ilə aparılacaq belə bir siyasəti qoyubsa, bu olduqca ibtidai və işləməyən bir tezisdir:"Əslində, hökumətin hədəf aldığı qurumun rolundan və əhəmiyyətindən bir an ayrılsaq, hakimiyyətin təsadüfən qorxularını dilə gətirdiyinin şahidi olarıq. Demək olar ki, Köçəryanı azadlıqda görmək Paşinyan administrasiyasının ən böyük qorxusudur və hakimiyyəti hərəkətlərinə nəzarətetmə ampluasından çıxara biləcək gücə malikdir. II Qaregin şəxsiyyətinə müsbət və ya mənfi münasibətindən, dini etiqadından asılı olmayaraq, Paşinyanın sırf siyasi cəhətdən ən böyük qorxusu, daha doğrusu, hazırkı baş nazirin ən çox nədən qorxduğu amil ortaya çıxdı".

İndiki durumda kilsə də Paşinyanın hakimiyyətini tam qəbul etmir. Kilsə bəyan edib ki, "Eçmiədzin"in dəstəyi olmadan heç bir hakimiyyət qala bilməz. Paşinyan da bunu özünə qarşı çağırış kimi qəbul edir. Digər tərəfdən məlumdur ki, Qaregin köhnə iqtidara yaxınlığı ilə seçilir. Paşinyan da kilsənin rəhbərliyində özünə loyal olan insanların yer almasını istəyir. Bu isə onlar arasında ziddiyyəti daha da dərinləşdirir.

***Nahid SALAYEV***

# ABŞ - Çin qarşılıqlı "koronavirusu sən gətirdin" müharibəsi dünyanı hara aparır...

**Məhəmməd Əsədullazadə:** *"Pandemiyadan sonra dünya nizamında ciddi dəyişikliklər olacaq"*

**ABŞ Prezidenti Donald Tramp keçirdiyi mətbuat konfransında koronavirusa görə Çini ittiham edib. Tramp Ümumdünya Səhiyyə Təşkilatını (ÜST) Çinin xeyrinə dünyanı aldatmaqda ittiham edərək deyib ki, virusu Çin yayıb.**

*"Artıq tərəflərin yeni mübarizəsi başlayır və bu, Çinin iqtisadiyyatını hədəf alacaq"*

Bununla belə, o, ÜST-nin pandemiya ilə bağlı ört-basdır etdiyi məsələləri araşdırdıqlarını deyib: "Ümumdünya Səhiyyə Təşkilatı Çinin əsiridir. Nə baş verdiyini anlamağımız uzun çəkdi. Ancaq ÜST-nin Çində baş verənlərlə bağlı məlumatlı olduğunu hiss edirəm. ÜST ölkələrin sərhədlərini virusdan qoruya bilmədi. Bu, böyük bir səhv idi. Bəlkə də səhv deyildi və ÜST çox şey bilirdi. Mənə görə, ÜST Çinin əsiridir və onların göstərişini yerinə yetirir".

Onu da qeyd edək ki, ABŞ Prezidenti ötən həftə ÜST-yə ayrılan maliyyə yardımının dayandırılması ilə bağlı göstəriş verib.

Koronavirus yayılmağa başlayanda bunun necə yaranmağı barədə müxtəlif fikirlər səsləndi. İlk rəsmi şübhə Pekində söyləndi. Çin Xarici İşlər Nazirliyinin bir nümayəndəsi virusun Uhan şəhərinə təlim üçün gələn ABŞ hərbçiləri tərəfindən gətirilə biləcəyini dedi. ABŞ-ın buna cavabı daha sərt idi. İndi Vaşinqton Çinlə bağlı şübhələr yaradır. ABŞ kəşfiyyatının Çindəki vəziyyətlə bağlı ciddi məlumatlara malik olduğu deyilir.



Çin Xarici İşlər Nazirliyi isə virusun Çindən gəldiyi şübhəsini dəstəkləyəcək bir dəlil olmadığını deyib. Yəni o, şübhəni təkzib etmir, ancaq heç bir dəlilin olmadığını söyləyir.

O da məlumdur ki, ABŞ-la Çin dünya iqtisadiyyatında çox böyük çəkiyə malik ölkələrdir. İki ölkə arasında belə mübahisələrin yaşanması dünya üçün yaxşı bir şey vəd etmir. Ümumilikdə, bu mübahisə nə ilə bitə bilər?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Koronavirusun Çində yayılması və bunun dünyadan gizlədilməsi ÜST ilə Çin arasında əməkdaşlıq çərçivəsində olması versiyasını ortaya atır. Bunu bir çoxu istisna etmir. Çünki ilk vaxtlar bu virusun insandan-insana keçməməsi qeyd edilirdi. ÜST pandemiyanın olmayacağı qənaətində idi. Halbuki, bu barədə ÜST dünyanı məlumatlandırmalı idi. Ancaq, nədənsə, buna gedilmədi və virus dünyada qlobal problemlərə yol açdı. Bu səbəbdən, ABŞ ÜST ilə Çin arasında razılaşmanın olduğunu qeyd edərək hər ikisini günahlandırır. ÜST-yə maliyyə yardımını dayandırdı və sözügedən təşkilatın Çinə yaxın bir qurum olduğunu irəli sürdü. Beynəlxalq münasibətlər sistemində ciddi boşluqların ortaya çıxdığı, beynəlxalq təşkilatların bu və ya digər ölkələrin marağına xidmət etdiyi aydınlaşdı. Bu virusdan ən çox ziyan çəkən ABŞ olduğu üçün, Çinə qarşı ciddi həmlələr reallaşdıracaq və ÜST-ni özünə tabe edəcək. Pandemiyadan sonra dünya nizamında ciddi dəyişikliklər olacaq. ABŞ - Çin mübarizəsi, rəqabəti yeni mərhələyə keçəcək. Hesab edirəm ki, Vaşinqton daha təsirli şəkildə beynəlxalq nizamın formalaşması istiqamətində ciddi səylər göstərərək Çini küncə sıxışdıracaq. Artıq tərəflərin yeni mübarizəsi başlayır və bu, Çinin iqtisadiyyatını hədəf alacaq. ÜST və Çin işbirliyi təsdiqlənsə, bunun bədəlini ABŞ ödətdirəcək".

***Vidadi ORDAHALLI***

# Azərbaycan - Kuba Dostluq Cəmiyyəti bəyanat yaydı

**Azərbaycan - Kuba Dostluq Cəmiyyəti bəyanat yayıb. Bəyanatı Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, professor, Əməkdar incəsənət xadimi Yasif Nəsirli və professor, Azərbaycanın Xalq rəssamı, Azərbaycan - Kuba Dostluq Cəmiyyətinin sədri Arif Hüseynov imzalayıblar.**

Bəyanatda deyilir: "Dünyanın əksər ölkəsində olduğu kimi, COVID-19-un mənfi təsirlərinə məruz qalan Kubaya qarşı öz soyqırım siyasətini yürüdən ABŞ hökuməti qurbanların sayını artırmaq və adada xaos yaratmağa çalışmaqla yenə qəzəbə səbəb olur.

Hal-hazırda Kuba öz ənənəvi təchizatçılarının bəzilərindən: süni nəfəs aparatlarını (ağ ciyər ventilyasiya aparatları) əldə edə bilmir, çünki ABŞ-a məxsus bir şirkət bu tibbi avadanlıqları istehsal edən iki şirkəti satın almışdır. Bu aparatlar COVİD-19-a yoluxmuş ağır və kritik halda olan insanların müalicəsi üçün ən zəruri elementi təşkil edir.

Pandemiyanın geniş vüsət aldığı bir dövrdə BMT və bütün dünya ictimaiyyətinin əməkdaşlıq və həmrəyliklə bağlı çağırışlarına məhəl qoymayan ABŞ hökuməti Kuba və başqa xalqlara qarşı öz soyqırım siyasətini davam etdirir.

Dünyanın ən qüdrətli dövləti COVİD-19-la mübarizə aparmaq üçün tibb işçilərinə ehtiyacı olan ölkələrə dəmək olar 20-dən çox tibbi dəstək briqadası göndərərək, öz tibbi personalı ilə dünyanın 60-dan çox ölkəsinə yardım göstərən bu kiçik və mübariz xalqı yaşamaq hüququndan məhrum edir.

1992-ci ildən bəri davamlı olaraq 28 ildir ki, BMT-nin Baş Assambleyası ABŞ-ın Kubaya qarşı tətbiq etdiyi İqtisadi, Ticari və Maliyyə sanksiyasını pisləyərək buna son qoymasını tələb edir. Kubanın ötən ilin oktyabr ayında səslənən son bəyanatı 187 ölkənin dəstəyini almışdır ki, bu Beynəlxalq Birliyin praktiki olaraq yekdil mövqeyi deməkdir. Bunlar hamısı kifayət etmir.

Bununla belə, ABŞ-ın hazırki hökuməti bütün bəşəriyyət üçün bu çətin vaxtlarda qardaş Kuba xalqına bərpa olunmaz zərər vuracaq yeni sanksiyalar tətbiq etməklə blokadanı genişləndirmiş və daha da sərtləşdirmişdir.

Azadlıq adasına qarşı tətbiq edilən blokadanı dönə-dönə pisləyir və bir daha diqqətinizə çatdırırıq ki, 60 ildən bəri Ağ Evin yeganə məqsədi Kuba İnqilabını məhv etməkdir və buna nail olmaq üçün heç bir yoldan çəkinmir".

# Banklar Prezidentin on minlərlə insan üçün faydalı tapşırığını necə icra edəcək...

**"Tapşırıq verirəm ki, 600 min insan aprel-may aylarında, iki ay ərzində ayda 190 manat dövlətdən alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar".**

*"...insanların hesab açmaları gələcəkdə banklara fərqli yanaşmanı ortaya qoyacaq"*

***Pərviz Heydərov:** "Koronavirus pandemiyası bank-vətəndaş münasibətlərini yeni mərhələyə keçirdi"*




Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda çıxışı zamanı deyib: "Birinci ödəniş bu ay veriləcək. Ona görə, bəzi insanların bank hesabı açmağa imkanları olmayacaq. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər insanlar, 600 min insan, hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu, bizim xahişimizdir, bu, bizim tələbimizdir".

Prezident əhalinin rahat şəkildə birdəfəlik ödənişi alması üçün banklara göstəriş verdi ki, bank hesabı açılarkən onlara şərait yaradılsın.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov qeyd etdi ki, koronavirus pandemiyası bank-vətəndaş münasibətlərini yeni mərhələyə keçirdi:

"Dövlətin vətəndaşlar üçün təyin etdiyi birdəfəlik ödənişləri onların banklardan alması və insanların hesab açmaları gələcəkdə banklara fərqli yanaşmanı ortaya qoyacaq. Koronavirus pandemiyası istər sosial, istərsə də iqtisadi sahədə bir çox həqiqəti üzə çıxardı. Xüsusilə bu gün üzə çıxdı ki, əmək müqaviləsi olmadan, qeyri-formal işləyənlərin sayı həddən artıq çoxdur. İlk növbədə, bu sahədə şəffaflaşma lazımdır: yəni sahibkarların vergidən yayınmasına, işçinin isə sosial müdafiəsiz buraxılması kimi pis ənənəyə son qoyulmalıdır.

**Eyni zamanda, cənab Prezident birdəfəlik ödəniş alan vətəndaşlara bir daha tövsiyə etdi ki, bank hesabları açsınlar. Bu qərar da çox vacibdir. Çünki bu gün təəssüf ki, vətəndaşlar banklara daha çox kreditlə bağlı müraciət edirlər. Prezidentin bu qərarından sonra vətəndaşların özləri üçün şəxsi hesab açmasının geniş vüsət alacağını düşünürəm".**

*Günel CƏLİLOVA*

# Dövlətdən ayda 190 manat alanların sayı ən yaxın günlərdə 200 mindən 600 minə çatdırılmalıdır

**"200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir". Bunu Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda deyib.**

***Rəsul Cahangirli:** "İşlərin sürətli gedişi onu deməyə əsas verir ki, ayın sonuna qədər 600 min vətəndaş 190 manat ala biləcək"*




Ölkə başçısının fikrincə, aztəminatlı ailələrin problemləri daha geniş şəkildə həll edilməlidir. Prezident bildirib ki, yardım üçün müraciət edənlərin sayı kifayət qədər artıb: "İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir. İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür. Ona görə tapşırıq verirəm ki, aprel-may aylarında - iki ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın".

Prezident onu da qeyd edib ki, vətəndaşlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar: "Birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabları açsınlar. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın".

Göründüyü kimi, Prezidentin məlum qərarı ilə 190 manat alanların sayı 3 dəfə artacaq. Bu da kifayət qədər böyük rəqəmdir və ciddi sosial əhəmiyyətə malik olacaq. Bütün bunlarla yanaşı, 190 manat alanların sayının 200 mindən 600 minə çatdırılması nə dərəcədə mümkün olacaq?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirli buna bir neçə aspektdən yanaşdı: "Əvvəla sözügedən sosial xarakterli tədbirlər aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Hansı ki, dövlət səviyyəsində bu istiqamətdə sistemli olaraq tədbirlər görülür. Bəzi proqramların icrası və genişləndirilməsi işləri həyata keçirilir. Koronavirus karantini dövründə ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən sosial siyasət aztəminatlı ailələrin vəziyyətinə müsbət təsir göstərəcək. Ayın sonuna qədər birdəfəlik ödəmə veriləcək şəxslərin gündəlik rəqəminin 25-30 minə çatdırılması nəzərdə tutulur.

İşlərin sürətli gedişi onu deməyə əsas verir ki, ayın sonuna qədər 600 min vətəndaş 190 manat ala biləcək. Bir məqamı qeyd edim ki, dövlət səviyyəsində bununla bağlı heç bir problem yoxdur. Çünki dövlətin kifayət qədər maliyyə resursu var. Azərbaycan öz maliyyə eytiyatlarına söykənərək bu addımları atır. Ancaq ikinci ödənişi may ayında almaq üçün vətəndaşlar bank hesabı açmalıdırlar. O üzdən, yardım alacaq vətəndaşların hamısı bank hesabı açsa, o zaman bunda heç bir problem olmayacaq. Hesab edirəm ki, bank hesablarının açılması ilə bağlı cəmiyyətdə maarifləndirmə işi gücləndirilməlidir".

*Vidadi ORDAHALLI*

# Dollar təhdidi Azərbaycan üçün tam aradan qalxır - valyuta ehtiyatlarının artımı ilə...

**Ölkədə keçirilən son valyuta hərraclarında dollara tələbin azalması müşahidə olunur. Məsələn, Mərkəzi Bankda Dövlət Neft Fondunun iştirakı ilə son valyuta hərracı zamanı ondan əvvəl olanla müqyisədə tələbin 3,5 milyon dollar və ya təxminən 6,2% azalaraq 53 milyon dollar təşkil etdiyi məlumdur.**

Ümimiyyətlə, son bir neçə hərracda dollar tələbinin azalması özünü aydın göstərir. Bu fonda manatın ortaçəkili məzənnəsi 1 dollar üçün 1,7 manat səviyyəsində qalmaqda davam edir. Halbuki, qonşu Türkiyə, İran, Rusiya, elə Gürcüstanda da milli valyutaların nəzərəçarpacaq dərəcədə ucuzlaşması müşahidə olunur.

Azərbaycanda məzənnə sabit olmaqla yanaşı, valyuta ehtiyatlarının artımının da qeydə alınması manat üçün mühüm amillərdən sayılır. Ölkənin valyuta ehtiyatları bu il aprelin 1-nə 47 milyard 743,3 milyon dollar təşkil edib. Bunun 86,6%-i və yaxud 41 milyard 349,5 milyon dolları Azərbaycan Dövlət Neft Fondunun (ARDNF), 13,4%-i və yaxud 6 milyard 393,8 milyon dolları isə Mərkəzi Bankın payına düşüb. Son 1 ildə isə ölkənin valyuta ehtiyatları 1 milyard 691,4 milyon dollar və yaxud 3,7% artıb. Düzdür, ilin ilk rübündə Neft Fondunun aktivlərində azalma da olub. Belə ki, bu ilin ilk rübündə valyuta ehtiyatları 1 milyard 838 milyon dollar və yaxud 3,7% azalıb. Belə ki, ARDNF-in valyuta ehtiyatlarında 1 milyard 973,8 milyon dollar və yaxud 4,55% azalma, Mərkəzi Bankın valyuta ehtiyatlarında isə 135,8 milyon dollar və yaxud 2,2% artım olub. Amma son bir il ərzində ARDNF-in valyuta ehtiyatları 1 milyard 76,2 milyon dollar və yaxud 2,7%, baş bankın valyuta ehtiyatları isə 615,2 milyon dollar və yaxud 10,65% artım nümayiş etdirib. Səslənən rəqəmlərdən aydın görünür ki, ölkənin böyük valyuta ehtiyatları manatın məzənnəsi üçün təhdidləru aradan qaldırır. Digər tərəfdən, valyutaya azalan tələb də burada öz sözünü deyir. Amma istənilən halda, dünya iqtisadiyyatında baş verənlər, xüsusən də neftin xeyli qiymətdən düşməsi fonunda ekspertlər dollarla bağlı müəyyən addımların atılmasını da vacib sayır.

"Fitch" beynəlxalq reytinq agentliyi də hesab edir ki, bu, Azərbaycanın özünün sonrakı iqtisadi təhlükəsizliyi üçün önəmlidir. Agentlik xatırladır ki, fevralın sonundan etibarən neftin qiymətinin kəskin şəkildə ucuzlaşmasına baxmayaraq, Azərbaycan dolların məzənnəsini 1,7 manatda saxlamağa davam edir. Neft sektorunda ucuzlaşma fonunda qurum bunun uzunmüddətli presprektiv üçün təhlükə yarada biləcəyini bildirir.

Agentlik qeyd edir ki, 2020-ci ilin əvvəlindən Dövlət Neft Fondu valyuta hərraclarında 2,9 milyard dollar, həmçinin martda 1,9 milyard dollar valyuta satıb. Ümumilikdə, ARDNF 2020-ci ildə satmağı nəzərdə tutduğu xarici valyutanın 45%-ni artıq satıb. Təbii ki, proseslər uzun müddət bu şəkildə davam etsə, Azərbaycan üçün müəyyən təhdid yarana bilər. Ən azı o baxımdan ki, koronavirus təhdidinin haçan səngiyəcəyi hələ dəqiq bəlli deyil. Eləcə də bu fonda neft bazarında vəziyyətin nə zaman düzələcəyinə dair dəqiq proqnozlar yoxdur. Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov bu xüsusda bildirib ki, məsələ mürəkkəb yanaşma tələb edir:"Çünki neftin qiymətləri uzun müddət aşağı səviyyədə qalsa, ölkəyə daxil olan valyutanın həcmi az olsa, bunun manata təsiri olacaq. Digər tərəfdən, ölkədaxili bazarda, o cümlədən istehlak bazarında idxalın xüsusi çəkisi hələ də çoxdur və devalvasiyanın baş verməsi böyük rəqəmlərlə ifadə olunan inflyasiya deməkdir. Devalvasiya bütövlükdə hər bir milli iqtisadiyyatda çox ciddi problemlər yaradır. Çünki lazımi səviyyədə investisiyaları və bütövlükdə iqtisadi inkişafı planlaşdırmaq olmur. Devalvasiya baş verən yerdə investisiyalar azalır və real sektor çox böyük maliyyə, pul qıtlığı hiss edir. Bütün iqtisadiyyatlarda devalvasiya ciddi "baş ağrısı"dır. Ona görə devalvasiyaya getməyin kifayət qədər ciddi mənfi nəticələri ola bilər".

Onun sözlərinə görə, digər tərəfdən sual da yaranır ki, manatın dayanıqlığını necə təmin edək:"Bütün ehtiyatlarımızdan istifadə edib manatın sabitliyinə xərcləsək, bunun bir effekti olmayacaq. Ona görə manatın sabitliyinin saxlanması ancaq valyuta ehtiyatlarının xərclənməsindən ibarət olmamalıdır. Valyuta məhdudiyyətləri qoyulmalı, valyuta siyasətində ciddi dövlət tənzimlənməsi reallaşdırılmalıdır. Valyuta mübadiləsi cari əməliyyatlar üçün olmalıdır. Amma bəzi hallarda valyuta alanlara heç o valyuta lazım olmur, onlar bunu faktiki olaraq möhtəkirlik məqsədilə, sonra daha baha satmaq üçün alırlar. Yəni belə proseslərin qarşısı alınmasa, valyuta bazarında sabitlik qoruna bilməz. Ona görə də valyuta siyasətində Mərkəzi Bank aktiv şəkildə tədbirlər görməlidir. Yeri gəlmişkən, son ayda valyuta bazarında müəyyən məhdudiyyət qoyuldu və bunun müsbət nəticələri də oldu. Amma yanaşma sistemli olmalıdır, çünki vəziyyət mürəkkəbdir". Ekspert bildirib ki, neft bazarında proseslər uzun müddət belə davam edərsə, onsuza milli valyutanın məzənnəsi ilə bağlı yenidən qərarlar qəbul etmək lazım olacaq. Hesab edirəm ki, valyutamızın sabitliyinin neftə bağlanması ənənəsindən əl çəkməliyik. Əks halda, iqtisadiyyatda ciddi problemlər ola bilər. Biz valyutamızı daxili investisiya valyutası etməliyik və investisiyaların planlaşdırılmasında, pul kütləsinin iqtisadiyyata buraxılmasında neft və dollar amilindən ümumiyyətlə çəkinməliyik. Dolların daxildə istifadəsini tam şəkildə dayandırmaq lazımdır, ancaq cari əməliyyatlar üzrə dollarla əməliyyatlar həyata keçirilməlidir. O cümlədən, bank sektorunda dollarla ifadə olunan depozitlərin sığortalanması, dolların bank sektorunda dövriyyəsinin davam etdirilməsi mütləq dayandırılmalıdır".



**Digər ekspertlər də bildirir ki, əslində, dollarla bağlı məsələnin sərt formada tənzimlənməsinə ehtiyac var. Ən azından bu, iqtisadi təhlükəsizlik üçün vacibdir. Eləcə də möhtəkirlik hallarının qarşısının alınması, bank sektorunda dollar sığortasından imtina bu pula Azərbaycanda tələbi əhəmiyyətli dərəcədə azalda bilər. O halda dollar Azərbaycan iqtisadiyyatı üçün heç bir təhdid də yarada bilməz.**

***Ramil QULİYEV***

# Koronavirusla mübarizədə Azərbaycan bələdiyyələrinin rolu görünmədi...

**Hazırda dünya koronavirus pandemiyasının yaratdığı böyük çətinliklərlə qarşı-qarşıyadır. Hətta bir sıra inkişaf etmiş ölkələr belə, bu çətinliklər qarşısında aciz qalıblar. Belə bir vaxtda Azərbaycan xalqının sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, xüsusilə də genişmiqyaslı sosial dəstək tədbirləri bir çox ölkə üçün nümunə ola bilər.**

*"...ümumi işə onlar da töhfə verməlidirlər"*

Məsələ ondadır ki, görülən tədbirlər çərçivəsində, ilk növbədə, yaranmış vəziyyətdən əziyyət çəkən vətəndaşların problemləri həll edilir. Bu məqsədlə dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrılıb, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirən 600 mindən çox insan dövlət tərəfindən dəstəklə təmin edilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır, əhalinin sosial rifahını qorumaq üçün digər mühüm addımlar atılır. Bir sıra qurumlar, təşkilatlar intensiv fəaliyyət göstərirlər. Bütün mümkün vasitələrlə yaranan problemləri həll etməyə çalışırlar.

O da məlumdur ki, ölkədə çoxsaylı bələdiyyə fəaliyyət göstərir. Ancaq, nədənsə, bələdiyyələrin koronavirusla mübarizədə fəaliyyəti görünmür. Bu işdə hansısa təşəbbüslə çıxış etmələri, maarifləndirmə və digər məsələlərdə iştirakı gözə dəymir. Sanki bütün bunların bələdiyyələrə heç bir aidiyyəti yoxdur.

Maraqlıdır, koronavirusla mübarizədə bələdiyyələrin rolu niyə görünmür?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynli bunu bir sıra səbəblərlə, əsasən də bələdiyyələrin maddi imkanlarının məhdud olması ilə əlaqələndirdi: "Bunun ən başlıca səbəbi onunla bağlıdır ki, bələdiyyələr yetərli maliyyə imkanlarına malik deyillər. Çünki kifayət qədər ciddi oturuşmuş maliyyə qaynaqlarına sahib deyillər. Koronavirusla mübarizə çərçivəsində görülən tədbirlərdən biri də yolların, şəhərdaxili prospektlərin dezinfeksiya edilməsidir. Bu və ya başqa formada ərzaq yardımının təşkili həyata keçirilir. Əhaliyə maskalar paylanır və s. Bütün bunların içində bələdiyyələrin fəaliyyəti nəzərə çarpmır. Hesab edirəm ki, bununla bağlı bələdiyyələrə bəzi səlahiyyətlər verilməlidir. Bununla belə, bələdiyyələrin özündə də bir təşəbbüskarlıq olmalıdır. Ümumi işə onlar da töhfə verməlidirlər.

**İlqar Hüseynli:** *"Bunun ən başlıca səbəbi onunla bağlıdır ki, bələdiyyələr yetərli maliyyə imkanlarına malik deyillər"*




Əhalini qaydalara riayət etməyə dəvət etməlidirlər. Təəssüflər olsun ki, belə təşəbbüslər yoxdur. Azərbaycanda özü-özünü maliyyələşdirən bu və ya digər sosial proqramları icra etmək gücündə olan bələdiyyələr var.

Lakin belə bələdiyyələr çox azdır. Ümumi ölkə üzrə götürəndə bələdiyyələrin çoxunun maliyyə vəsaitinə ehtiyacı var. Ona görə də maliyyə imkanları olmadığına görə bələdiyyələrin bu prosesdə önə çıxması nəzərə çarpmır. Səbəbi əsasən bununla əlaqələndirirəm".

***Vidadi ORDAHALLI***

---

# Azərbaycanda işsizliyə görə ödəniş verilənlərin sayı 230 minə çatdırıldı

**Prezidentin tapşırığı əsasında koronavirus pandemiyasının əhaliyə təsirlərinin minimumlaşdırılması ilə bağlı tədbirlər davam etdirilir. Dövlət başçısının qərarına əsasən, birdəflik ödəmə ala biləcək vətəndaşlarımızın sayı 600 minə çatdırılacaq.**

*"İşsiz vətəndaşlara birdəfəlik ödənişin verilməsi Azərbaycanda tətbiq edilən sosial paketin davamlı olmasının göstəricisidir"*

Məlumat üçün bildirək ki, aprelin 9-dan gündəlik olaraq ödəniş prosesi həyata keçirilir. Açıqlanan son statistik rəqəmlərə əsasən, 230 min işsiz üçün birdəfəlik ödəmə təmin edilib.

Məlumdur ki, dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir əksini tapıb. 17 apreldə Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb. Bunlar yalnız ümumi sosial tədbirlərin bir hissəsidir. Əlavə olaraq Azərbaycan Prezidentinin qərarı ilə birdəfəlik ödəmə 600 min şəxsə ödəniləcək. Birdəfəlik ödəmə aprel-may aylarını əhatə edəcək, eyni zamanda da növbəti mərhələdə bu şəxslərin rəsmi məşğulluğunu təmin etmək üçün zəruri məlumatlar toplanacaq və uçot yaradılacaq.

Qısa müddət ərzində 230 min nəfərə birdəfəlik ödənişin verilməsi həmin insanların sosial durumunu normal vəziyyətə salıb.

Millət vəkili Vüqar Bayramovun sözlərinə görə, işsiz vətəndaşlara birdəfəlik ödənişin verilməsi Azərbaycanda tətbiq edilən sosial paketin davamlı olmasının göstəricisidir: **"Əvvəlki sosial paket 200 min vətəndaşı əhatə edirdi. Birdəfəlik ödəmə alacaq şəxslərin sayının 3 dəfə artırılması mühüm addımdır. Bu onu göstərir ki, sosial paketdən daha çox vətəndaşımızın faydalanması ilə bağlı siyasi iradə var".**

**Vüqar Bayramov:** *"Birdəfəlik ödəmə alacaq şəxslərin sayının 3 dəfə artırılması mühüm addımdır"*



Millət vəkili hesab edir ki, bu qərarın daha bir əhəmiyyəti var. Belə ki, bu proses aprel-may aylarını əhatə etsə də, növbəti mərhələdə bu şəxslərin rəsmi məşğulluğunu təmin etmək üçün zəruri məlumatlar toplanacaq və uçot yaradılacaq.

***Günel CƏLİLOVA***

№ 61 (4192) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

21 APREL 2020-ci il

www.baki-xeber.com



# Stalinin heykəli hərraca çıxarıldı

**Çexiyanın Komarov şəhər bələdiyyəsi keçmiş SSRİ-nin başçısı İosif Stalinin heykəlini satışa çıxarıb.**

"Qafqazinfo" xəbər verir ki, bununla bağlı rəsmi elan həmin yaşayış məntəqəsinin saytında yerləşdirilib. Heykəlin satışı yazılı hərrac formasında həyata keçirilir. Heykəlin ilkin qiyməti 20 min krondur (3405,75 AZN). Hərracda iştirak etmək istəyənlər qiymətlə bağlı təkliflərini poçt vasitəsilə bələdiyyənin ünvanına göndərə bilərlər. Bələdiyyə nümayəndələri abidənin satışını şəhər büdcəsində vəsait çatışmazlığı ilə əlaqələndiriblər.

# "Azercell" COVID-19-la mübarizədə növbəti xeyriyyə aksiyasına qoşuldu

**"Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə ehtiyacı olan insanlara qayğı və dəstək məqsədilə növbəti xeyriyyə aksiyasına qoşulub.**

"BEAT Group" ilə birgə keçirilən aksiya çərçivəsində "Azercell" abunəçiləri karantin günlərində aztəminatlı ailələr üçün müxtəlif təamların hazırlanıb çatdırılmasına yardım edə bilərlər.

Xeyriyyə aksiyasında iştirak edən "Azercell" abunəçiləri öz balansından 1AZN, 5AZN və ya 9 AZN məbləğində vəsaiti ianə etməklə COVID-19 virusu ilə bağlı yaranmış vəziyyətdə maddi çətinliklər çəkən vətəndaşlara kömək etmiş olacaqlar. Belə ki, yığılan məbləğin müqabilində lazım olan ərzaqlar alınaraq müxtəlif yeməklər hazırlanacaq və könüllülər tərəfindən aztəminatlı ailələrə çatdırılacaq.

Xeyriyyə təşəbbüsünə qoşulmaq üçün 5595 qısa nömrəsinə ianə edilən məbləği (1, 5 və ya 9) mesaj vasitəsilə yazıb göndərmək lazımdır, yaxud https://ev-deq.al/ saytındakı formu doldurmaqla həmin təşəbbüsü dəstəkləmək olar. Saytdakı "Hesabat" bölməsinə keçid edərək, "Azercell" abunəçisi ianə edənlərin siyahısında nömrəsinin son 3 rəqəmini və ianə edilən məbləği görə bilər, həmçinin, burada ianələrin xərclənməsinə nəzarət etmək, foto və videohesabatlarla tanış olmaq da mümkündür.

Ölkənin ən böyük telekommunikasiya şirkətlərindən olan "Azercell" elə ilk gündən Azərbaycan dövlətinin koronavirusla mübarizə istiqamətində atdığı addımları aktiv şəkildə dəstəkləyir. Mobil operator ölkəmizdə koronavirus infeksiyasına qarşı preventiv addımlar atılması və mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Fərmanı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna 2 milyon manat vəsait ayırıb.

Şirkət, həmçinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin "Qaynar xətt"inə (1542) pulsuz zəngləri təmin edən ilk mobil operator olmaqla yanaşı, hazırda Azərbaycanla nəqliyyat əlaqələri məhdudlaşdırılmış ölkələrdə olan və rominq xidmətindən istifadə edən abunəçilərin balansına 50 manat məbləğində pul vəsaiti də yükləyib.

"Azercell" istifadəçiləri üçün "Mobil Ödəmə" xidməti vasitəsilə Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə etmək imkanı yaradıb. Şirkət 65 yaşdan yuxarı olan abunəçilərinə Mobil Müştəri Xidmətini təmənnasız göstərərək onlara bəzi xidmətlərdən evlərini tərk etmədən yararlanmaq imkanı da təqdim edib.

Dövlətin koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə sahəsində sosial izolyasiya tədbirlərinə dəstək məqsədilə "Azercell" şirkəti tərəfindən Regional İnkişaf İctimai Birliyi (RİİB) ilə birlikdə 5 728 aztəminatlı ailəyə sovqat verilib.

"Azercell" koronavirusla mübarizənin ön cəbhəsində olan, həyatlarını risqə ataraq fədakarlıqla öz vəzifə borclarını yerinə yetirən tibb işçilərimizə də rabitə dəstəyi göstərib. Belə ki, "Azercell" öz abunəçiləri ilə digər iki operatorun abunəçiləri arasında heç bir fərq qoymadan yüksək məsuliyyətli iş başında olan 600-dən çox tibb işçisinin hər birinin balansına 50 AZN həcmində məbləğ yükləyib.

Bundan əlavə, "Azercell" media kanalları vasitəsilə yayımladığı videoçarxda xalqımızı həmrəy olub möhkəm dayanmağa, əzizlərimizə və doğmalarımıza dəyər verməyə, evdə olmağa səsləyib. Şirkət, eyni zamanda, bu çətin və həssas günlərdə "Busuu" - dil öyrənmə tətbiqində qoşulmaya 50% endirim, "Zvuk" musiqi tətbiqində isə mobil internet trafikindən pulsuz istifadə kampaniyaları təqdim edib.COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə ölkədə elan olunmuş karantin rejimi ərzində "Azercell" şirkəti ölkə vətəndaşlarına və öz istifadəçilərinə dəstəyi, onlar üçün müxtəlif sosial aksiyaların keçirilməsini davam etdirəcək.

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.**

## Bildiriş

Ailə məsələlərinə görə məhkəmə.
Təl-Əviv. İsrail.
İddiaçı: Avraem Albina.
Cavabdeh: Rəhman Sadikov-a qarşı.
KƏBİNİN POZULMASI ÜÇÜN MƏHKƏMƏYƏ DƏVƏT.

İddiaçı məhkəməyə 32441-11-19 nömrəli ərizəylə boşanmaq üçün müraciət etmişdir. Əgər sizin müdafiə olunmaq fikriniz varsa, bu elan dərc olunan gündən sonrakı 60 gün içində yazılı şəkildə bu məhkəməyə müraciət edə bilərsiniz.

Əgər yazılı müraciət etməsəniz, iddiaçı məhkəmənin qərarını sizin iştirakınız olmadan alma haqqına sahibdir.





**Qoç** - Ön planda iş olmalıdır. Xırdalıqlar və detallara diqqətli olun. Xaosu aradan qaldırın, aldığınız məlumat və informasiyanı sistemləşdirin. Ailə üzvləriniz və qohumlarınızla münasibətlərdə ciddi mövzu yarana bilər.



**Buğa** - Günün olaylarının zahiri təzahürləri sizi gərginlikdə saxlayacaq. Səhhətinizin qayğısına qalın. Kiçik ağrıların ciddi problemlərə çevrilməsinə rəvac verməyin. Tənha, təkbaşına çalışmaq üçün əlverişli gündür.



**Əkizlər** - Rutin işlərlə məşğul olun. Hadisələrin həmişəki axarının cari istiqaməti sizdən diqqətli davranmağı tələb edir. Profilaktiki tədbirlərə ehtiyac var. Münasibətlərdə mühüm an yaranacaq. Axşam saatlarında dincəlin.



**Xərçəng** - Maddi məsələləri ön plana çıxararaq süni məhdudiyyətlərə fikir verməyin. İstək və tələbatınızı təmin edin. Mövcud situasiyanı dəqiq qiymətləndirin, ağır problemləri çözməzdən əvvəl düşünüb-daşının.



**Şir** - Ehtiyat və resursların, imkan və vəsaitin artırılması üçün əlverişli gündür. Qənaət, xırdalıqların nəzərə alınması daha rahat, əlverişli yaşam arealı hissi yaradacaq. Gördüyünüz işlərdən razı qalmaq üçün aktiv olun, yaxşı işləyin.



**Qız** - Qəfil görüş, münasibətlərdə dönüş anı istisna deyil. Yeni intriqa və qarışıq hisslər yarana bilər. Emosiyaların tarıma çəkilərək işinizə mane olmasına imkan verməyin. Fərdiyyətçi olun, məqsədlərinizə çatmaq üçün var gücünüzlə çalışın.



**Tərəzi** - Köhnəlmiş əşyalar, hisslər və planlardan qurtulun. Stress və münaqişələrlə üzləşməmək üçün iş yerini qaydaya salın, köhnə və xarab əşyaları atın. Yaşamınızda yeni insan, yeni hiss və yeni plan peyda olacaq.



**Əqrəb** - Asılılıq hissindən qurtulmağa tələbat duya bilərsiniz. Maraqları dəyişmək, uğurlar və perspektivləri təhlil etmək üçün əlverişli zamandır. Yaşam süjetlərindən birinin yeni təfərrüatları ilə tanış olacaqsınız.



**Oxatan** - İpoxondriya, bədbin əhval-ruhiyyə, xroniki ağrıların kəskinləşməsinə yol verməmək istəmirsinizsə, düşünülmüş addımlar atın, ətalətə qapılmayın. Aktiv olun, yaşam tempinizi aşağı salmayın.



**Oğlaq** - İntuisiyanıza etibar edin. Dəyişikliklər və yeniliklərin nişanələrini anlamağa çalışın. Çalışdığınız insanların məziyyətlərinin bəzilərini anlamaq imkanları yaranır. Bundan sonra kiminlə əməkdaşlıq edəcəyinizə qərar verin.



**Dolça** - Ağır, uzun və yorucu gün olacaq. Bir sıra məsələləri eyni vaxtda diqqətlə saxlamalı, işlə bağlı sualları cavablamalı, sizə ünvanlanmış suallara cavab verməli olacaqsınız. Yeni iş gərginlik və izafi nevrozluqla müşayiət olunur.



**Balıqlar** - Gün çoxsaylı təmaslar, görüşlər, zənglər vəd edir. Tənha qalmağa çalışmayın gərəkli saydığınız işləri görün, yarımçıq heç nə saxlamayın. Səhhətinizə fikir verin, normal qidalanın. İmkan varsa, təmiz havada gəzişin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# Serbiyalı həkimlər xəstələrin rahat nəfəs alması üçün qarnı üstə yatmağı məsləhət görürlər

**İnsanlarda boğulma yaradan koronavirus zamanı xəstələrin daha yaxşı nəfəs ala bilmələri üçün yatmaq pozası aşkarlanıb.**

AZƏRTAC xəbər verir ki, serbiyalı həkimlər koronavirus və ya hər hansı səbəbdən boğulma yaşayan xəstələrə Prone pozasında, yəni qarnı üstə yatmağı tövsiyə edirlər. Həkimlər bildiriblər ki, belə yatmaq və ya uzanmaq hətta süni nəfəs aparatını əvəz edə bilər.

Bu cür yatanda oksigenin ağciyərlərə daxil olması asanlaşır. Serbiyada həkimlər artıq nəfəs problemi yaşayan bütün xəstələrə bunu tətbiq edirlər. Prone pozası Avropada nəfəsalma problemi yaşayan hər bir xəstəyə tətbiq olunur. Serbiyalı həkimlər xəstənin qarnı üzərində yatma müddətinin məhdud olmadığını da deyiblər. Xəstə özünü rahat hiss etdiyi müddət ərzində belə yatmaqda davam edə bilər. Hazırda bu metodu COVID-19 müalicəsində də geniş istifadə edirlər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.